

## İnsanlığa qiymət şəhid və qazilərimizə verilən dəyərdən keçir

10

## "Azərbaycanın başlatdığı enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir"



2

**Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında görüş keçirilib**

Səs

№ 125 (6566) **19 iyul** 2022-ci il. **Qiyməti 60 qəpik**

# Səbr kasası daşır və XƏBƏRDARLIQ EDİLİR!

Cari ilin, 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bir sıra məqamlara aydınlıq gətirildi. Ələlxüsus ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin müşavirədə söylədiyi giriş nitqi maraqla qarşılandı və həmin nitq əsnasında toxunulan məqamlar geniş ictimaiyyətin diqqətini cəlb etdi. Ölkə rəhbəri bu ilin altı ayı ərzində Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atıldığını dilə gətirdi və real...



7



## İİTKM və MEDİA birgə təlim keçirib

5



## Ermənilərdən ETİRAF: Hər şey pisdir, amma daha da pisləşəcək

9



## DİN-dən xəbərdarlıq: "Belə cəhd olarsa qarşısı alınacaq"

5

## Xaricdə təhsil almalı, yoxsa Azərbaycanda?



8

## Pandemiya davam edir:



13

virusun yeni mutasiyaları aşkarlanır



## Almanlar bu futbolçu üçün "Yuventus"a 70 milyon avro ödəyəcək!

16

# “Azərbaycanın başlatdığı enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir”

## Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında görüş keçirilib



***Dünən Prezident İlham Əliyevin Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf edir:***

"Bizim siyasi münasibətlərin inkişafı baxımından, sözün əsl mənasında, çox yaxşı nailiyyətlərimiz var. Çox fəal siyasi təmaslar mövcuddur. Bilirsiniz ki, Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Əminəm ki, gələn illərdə icrasını planlaşdırdığımız layihələr ticari əməkdaşlığımızı genişləndirəcək. Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq hər zaman gündəliyimizdə üstün yer tutub. Bu gün xüsusən də belədir. Hesab edirəm ki, çox yaxşı nəticələrimiz, nailiyyətlərimiz var. Bu ilin əvvəlində, xanım komissarın səfərindən sonra, biz enerji dialoqunu başlamışıq. Fikrimcə, bu, həmçinin qarşılıqlı marağın çox yaxşı əlamətidir.

## İlham Əliyev: “Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir”





## Ursula Fon der Lyayen: “Biz 2024-cü ilə qədər 60 milyon avro həcmində Avropa İttifaqı sərmayəsini Azərbaycana yatıracağıq”

Enerji təhlükəsizliyinə aid məsələlər birmənalı olaraq bu gün qlobal gündəlikdə ən üstün məsələlərdən biridir. Lakin bundan başqa, biz təhsil, daşımalar və bütün digər sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlıyıq. Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə aid hazırda müzakirə etdiyimiz məsələlər potensial əməkdaşlığımızın bütün sahələrini əhatə edir. Əminəm ki, səfəriniz zamanı biz bu və digər məsələləri müzakirə edəcəyik. Həmçinin bizi bu gün çox mühüm mərasim gözləyir və o, enerji sahəsində yeni geniş əməkdaşlığın başlanmasından xəbər verəcək."

Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen:

"Çox sağ olun, Səmimi qəbula görə çox sağ olun, cənab Prezident. Həqiqətən söylədiyiniz kimi, bizim aramızda uzunmüddətli tərəfdaşlıq var. Şərq Tərəfdaşlığı xüsusi olaraq Azərbaycanı əhatə edir. Əla münasibətləri daha da dərinləşdirmək istəyirik. Bu gün imzalayacağımız Anlaşma Memorandumuna nəzər salsaq, qeyd etməliyəm ki, ilk növbədə, həmin sənəd nümayəndələrimizin apardığı əla işin nəticələrinə əsaslanır. Orada enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpaolunan enerji məsələləri xüsusi qeyd edilir. Bir sözlə, sənəd bu gün təfərrüatla müzakirə etdiyimiz bütün məsələləri əhatə edir. Əlbəttə ki, Sizin də söylədiyiniz kimi, Anlaşma Memorandumundan başqa, Avropa İttifaqı ilə Azərbaycan arasında saziş də nəzərdə tutulur. Bunu elə indicə xarici işlər naziri ilə müzakirə etdik - həmin sazişə yeni təkan verək, daha irəliyə gedək və qalan məsələləri müzakirə edək."

Dünən həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar.

Daha sonra Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev öz bəyanatında diqqətə çatdırıb ki, enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü Memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumunu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var:

"Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra, qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik. Əlbəttə ki, 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır. İki ildən az müddətdə Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Biz bu əməkdaşlığın müsbət faydasını artıq görürük. Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük nailiyyətdir.

Bu il biz Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoquna başlamışıq. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Biz külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlamışıq. Potensialımızla bağlı artıq ilkin qiymətləndirməni aparmışıq. Deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 qeqavata bərabərdir. Bir sözlə, bizim nəhəng resurs ehtiyatlarımız var. Bundan əlavə, əlbəttə ki, gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir.

*Ardı Səh. 3*

# "Azərbaycanın başlatdığı enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir"



Əvvəli Səh. 2

Bu gün imzalanan Memorandum gələcək üçün bir növ yol xəritəsidir. Nəzərə alsaq ki, əvvəlcə planlaşdırdığımız bütün məsələlər tərəfimizdən icra olunub, əminəm, bundan sonra da böyük uğurlara imza atacağıq. Bu gün müzakirə etdiyimiz digər məsələlər sırasında şəbəkələrin qurulması məsələsi oldu. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq. Burada, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla bizi birləşdirən dəmir yolları var. Buna görə də münasibətlərimizdə şəbəkənin enerji qədər vacib olmasına yönələn birgə səylərə böyük ehtiyac duyulur. Əlbəttə ki, gündəliyimiz çox genişdir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində işləyirik. Bunu elə indicə xanım Prezidentlə müzakirə etdik və ümidvarıq ki, gələn ay bunu başa çatdıra bilərik. Bu, ikitərəfli əməkdaşlığımıza mühüm töhfə olacaqdır. Biz Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada işləyirik. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Planlarımızın icrası əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq. Əminəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var və planlaşdırdığımız bütün məsələlərin həllinə nail olacağıq."

Xanım Prezident Ursula Fon der Lyayenin bəyanatı:

"Cənab Prezident. Qətiyyət göstərərək, Avropa İttifaqını dəstəklədiyinizə görə minnətdarıq. Çünki Rusiyanın Ukraynaya kobud şəkildə müdaxiləsindən hətta əvvəl, Rusiyanın Avropaya qaz təchizatı artıq etibarlı deyildi. Buna görə Avropa İttifaqı Rusiyadan yan keçərək, daha etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəldi və mən Azərbaycanı onların sırasında hesab etməkdən məmnunam. Həqiqətən siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir.



*İlham Əliyev: "Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır"*

Bizim Anlaşma Memorandumumuzun üç məqamını vurğulamaq istəyirəm. Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu Memorandum vasitəsilə biz Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə Rusiyadan qaz təchizatının həcmini azaldacağıq və Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik.

Memorandumdakı ikinci mühüm məqam bərpaolunan enerji ilə bağlıdır. Azərbaycan bərpaolunan enerji sahəsində nəhəng potensiala malikdir. Cənab Prezident, Siz artıq bununla bağlı fikirlərinizi bildirdiniz. Xüsusilə də dənizin külək enerjisini və "yaşıl" hidrogeni qeyd etmək istəyirəm. Biz ikitərəfli görüşümüzdə bu mövzunu geniş müzakirə etdik. Bu gün imzalanan Anlaşma Memorandumu vasitəsilə biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək.

Nəhayət, bizim qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Məsələn, buraya metan qazının tullantıları da daxildir. Bizim Memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur. Cənab Prezident, bunu Sizinlə də müzakirə etdik - mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var.

Prezident Əliyev və mən enerjidən əlavə, əlaqələrimizin və əməkdaşlığımızın bütün aspektlərini müzakirə etdik. Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının sabah Brüsseldə iclası baş tutacaq və orada ikitərəfli əməkdaşlığımızın inkişafı müzakirə ediləcək. Biz hazırda yeni ikitərəfli saziş üzərində çalışırıq və ümid edirik ki, iş tezliklə yekunlaşacaq. Onun məqsədi iqtisadi sahədə mövcud olan güclü tərəfdaşlığı genişləndirməkdir. Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. Həmçinin sərmayə qoyuluşu baxımından da Azərbaycan üçün ən vacib mənbələrdən biridir. Biz bunu genişləndirmək istəyirik. Biz 2024-cü ilə qədər 60 milyon avro həcmində Avropa İttifaqı sərmayəsini Azərbaycana yatıracağıq, iqtisadi və sərmayə planı 2 milyard avroya qədər əlavə sərmayənin səfərbər edilməsi potensialına malikdir. Həmin plan artıq icra olunur və Azərbaycanda təqribən 25 min kiçik və orta şirkətə dəstək verir. Həmçinin Bakı limanının dayanıqlı nəqliyyat qovşağına çevrilməsinə töhfə verilir. Bu, bizim üçün Sizin də qeyd etdiyiniz bağlılıq mövzusu baxımından da olduqca vacibdir. Biz bunu da müzakirə etdik. Bu mənada xalqlarımızın və cəmiyyətlərimizin daha da yaxınlaşdırılması da xüsusi əhəmiyyət kəsb edir.

Bu, bizim qlobal qapı strategiyamızın başlıca missiyasıdır və həmçinin Şərq Tərəfdaşlığının mahiyyətidir. Avropa İttifaqı Azərbaycanla birgə çalışaraq Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusundadır. Biz mühüm Trans-Xəzər əlaqələrinə dair ideya və müzakirələri böyük maraqla izləyirik və müzakirələrin dərinləşdirilməsinə töhfə verəcəyik. Nəhayət, biz vahid hava məkanı haqqında sazişi yekunlaşdırmaq istəyirik. Çünki bu, biznes, ticarət və turizm imkanlarına böyük təkan verəcəkdir.

Azərbaycan tam potensialına nail olmaq üçün investor əminliyini təmin etməlidir. Buraya vətəndaş



cəmiyyətinin daha da cəlb edilməsi, azad və müstəqil medianın olması daxildir. Avropa İttifaqı Cənubi Qafqazın təhlükəsiz, sabit və firavan olmasına sadiqdir. Məsələn, biz bu ölkədə minalardan təmizləmə sahəsində ən böyük donoruq. Biz bu vacib mövzunu da müzakirə etdik. Biz bu məqsəd üçün 4.25 milyon avroluq yeni yardım paketini elan etdik. Bununla yanaşı, biz bu mühüm sahədə avadanlıq və təcrübə təklif edirik."

# İqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır

## İLHAM ƏLİYEV: "İlin altı ayı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir"



İyulun 15-də Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən və bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı bu dövrdə əldə olunan nəticələri müsbət qiymətləndirdi və açıqlanan göstəricilərin ölkəmizin dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqlədiyini vurğulayıb: "Azərbaycanın dinamik inkişafı bu il də uğurla davam etməkdədir. Cari ilin birinci yarısında müşahidə etdiyimiz müsbət inkişaf tendensiyaları, əldə olunan nəticələr bunu deməyə əsas verir". Dövlət başçımız çıxışında qeyd etdiyi kimi, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. İlk növbədə, ötən dövr ərzində Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasını əldə olunan nailiyyətlər sırasında qeyd edə bilərik. O cümlədən, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik müddətinin gələn ilin sonuna qədər artırılması bu uğurun bariz göstəricilərindən biridir. Bir sözlə, görülən işlər göz önünüdədir. Bütün bu uğurlara Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti sayəsində bu məqsədlərə nail olub. Bu gün ölkəmizdə iqtisadi inkişaf, sosial məsələlərin həlli, ordu quruculuğu, Qarabağın bərpası istiqamətində nəhəng infrastruktur, nəqliyyat, energetika layihələri icra edilir. Ən əsası isə qlobal nizamsızlıq, xaos və anarxiya fonunda Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür. Siyasi, iqtisadi, hərbi, enerji, ərzaq, informasiya komponentləri olmaqla, milli təhlükəsizliyimiz yüksək səviyyədə təmin edilir.

### "İQTİSADİ MÜSTƏQİLLİK SİYASİ MÜSTƏQİLLİYİN TƏMƏL DAŞIDIR"

Dövlət başçısı son vaxtlar dünya iqtisadiyyatının tənəzzülə uğrayacağı ehtimalının olduğunu vurğulayaraq hər an Azərbaycanın da buna hazır olmağını söyləyib: "Onu da deməliyəm, indi çox böyük ehtimallar var ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq. Yəni, resessiya haqqında mötəbər beynəlxalq qurumları, maliyyə qurumları artıq bir qaçılmaz fakt kimi danışırlar. Biz də buna hazır olmalıyıq"."Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik. Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın. Çünki yenə də bunu özümüzə mənəvi borc bilirik və bizim sosial siyasətimiz hər zaman belə olub",-deyən dövlət başçısı son müddət ərzində orta əməkhaqqı haradasa 14 faiz artıb, pensiya 10 faizdən çox artdığını deyib: "Bütün bu artımların mənbəyi var, bu da dövlət büdcəsidir. O büdcə ki, o büdcədən biz ordumuzu gücləndiririk və gücləndirəcəyik, bax, dediyim səbəblərə görə. O büdcə ki, biz sosial məsələləri həll edirik, O Qarabağı yenidən qururuq və bütün başqa ehtiyaclarımızı ödəyirik və heç kimdən bir manat almadan. Ona görə bunu bilmək lazımdır. Bunu unudanlar da gərək yaddaşlarını, necə deyərlər, aydınlaşdırsınlar, bir az diqqətli olsunlar. Əlbəttə ki, bütün bu işlərin görülməsi üçün iqtisadiyyat əsasdır". Azərbaycan Prezidenti İlham Əliyev onu da vurğulayıb ki, iqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik: "Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi. Ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var". "Biz büdcəni təkcə neftin qiymətinin artırılması nəticəsində böyütməmişik. Yəni, dürüstləşmə, eyni zamanda, aparılan islahatlar nəticəsində mümkün olmuşdur",-deyən dövlət başçısı onu da vurğulayıb ki, dünyada neftin qiyməti qalxıb, amma eyni zamanda, dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir: "Bəzən kimsə fikirləşir ki, neftin qiyməti artıb, Azərbaycan daha çox zənginləşib. Bəli, neftin qiyməti artıb, amma bizim ehtiyatlarımız əsasən istiqrazlardadır, səhmlərdədir. Açsınlar baxsınlar, dünyanın kapital bazarları necə çöküb. Əlbəttə, bu, müvəqqətidir. Bütün suveren fondlar bu vəziyyətlə üzləşiblər. Mən indi başqa suveren fondların itkilərini demək istəmirəm, amma burada 10 milyardlarla itkilərdən söhbət gedir - böyük suveren fondların, bu kapital bazarının çökməsi nəticəsində. Bu, bizə də mənfi təsir göstərir. Ancaq biz öz işimizlə, islahatlarla elə işləyirik ki, heç kim bunu hiss etmir".

### "ŞƏFFAFLIQ, DÜRÜSTLÜK, HESABATLILIQ: NƏTİCƏDƏ 6 AYDA VERGİLƏR SAHƏSİNDƏ PROQNOZDAN ƏLAVƏ 2 MİLYARD MANAT PUL YIĞILDI"

Prezident İlham Əliyev iqtisadi sahədə aparılan islahatlar nəticəsində 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldığını vurğulayaraq bildirib ki, bu nəticə şəffaflığın, dürüstlüyün, hesabatlılığın hesabına əldə olunub: "Ona görə 6 ayda 2 milyard manat əlavə ancaq vergi orqanları yığıbdır və biz bundan istifadə edirik. İlin sonuna hələ təxminən 6 ay var. Budur, bizim maliyyə-iqtisadi imkanlarımızın əsas faktoru. O ki qaldı iqtisadi artıma, əlbəttə, biz bunu hər dəfə iki yerə bölürük - iqtisadi artım və qeyri-neft iqtisadiyyatının artımı. Hər iki istiqamət üzrə yaxşı nəticələr var. İqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye sahəsində 11,5 faiz artıb. Çox yaxşı nəticələrdir və bu nəticələri biz real həyatda da görürük. Çünki bu, imkan verir ki, biz maaşları artıraq, pensiyaları artıraq. Əhalinin gəlirləri təxminən 20 faiz artıb. Düzdür, inflyasiya bu artımın bir hissəsini, necə deyərlər, yeyir. İnflyasiya 12 faizdən bir qədər çoxdur. Amma bu, dünyada ümumi tendensiyadır. Hətta inflyasiya bəlkə 0-0,5, 1 faiz olan ölkələrdə indi inflyasiya ikirəqəmli inflyasiyaya yaxınlaşır. Yəni, bu, ümumi trenddir və biz də dünya iqtisadiyyatının bir parçasıyıq. Onu da deməliyəm, indi çox böyük ehtimallar var ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq. Yəni, resessiya haqqında mötəbər beynəlxalq qurumlar, maliyyə qurumları artıq bir qaçılmaz fakt kimi danışırlar. Biz də buna hazır olmalıyıq. Azərbaycanda iqtisadi inkişaf, sosial məsələlərin həlli, ordu quruculuğu, Qarabağın bərpası, nəhəng infrastruktur layihələri, nəqliyyat, energetika layihələri, sabitlik, əmin-amanlıq - bunu hər kəs, necə deyərlər, real bir fakt kimi qəbul edir və bu, çox yaxşıdır. Mən çox şadam ki, bunu hər kəs belə görür və belə də qəbul etməlidir. Amma bunu təmin etmək üçün nə etmək lazımdır? Bunu bəziləri görmür və yaxud da görmək istəmir. Biz öz hesabımıza yaşayırıq. Heç kim bizə kömək etmir, heç vaxt da etməyib və etməyəcək. Ona görə də öz həyatımızı özümüz qururuq. Heç kimin işinə qarışmırıq, amma, eyni zamanda, qoymuruq kimsə gəlsin bizim işimizə qarışsın. İqtisadi müstəqillik, yenə də deyirəm, siyasi müstəqilliyin təməl daşıdır.

### "AZƏRBAYCAN XALQINA NƏ VƏD VERMİŞİKSƏ, ONU YERİNƏ YETİRMİŞİK"

Dövlətimizin başçısı müşavirədə, həmçinin qeyd edib ki, Azərbaycan öz sözünə sadiq qalan ölkədir və bunun sübutu olaraq beynəlxalq arenada Azərbaycanın oynadığı rolu, göstərdiyi həmrəyliyi və ehtiyac içərisində olan ölkələrə verdiyi həm humanitar, həm də maliyyə dəstəyini misal çəkmək olar. Və bu da birmənalı olaraq demək lazımdır ki, bu gün ölkəmizin beynəlxalq nüfuzunun durmadan artması Prezident İlham Əliyevin xarici siyasətinin məntiqi nəticəsidir. Belə ki, bu istiqamətdə atılan önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması idi. Azərbaycanın paytaxtında keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, Qoşulmama Hərəkatının çox böyük potensialı var və bu təşkilat həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün çox önəmli platformadır və Azərbaycan da Qoşulmama Hərəkatının institusional inkişafına böyük töhfələr verib. "Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına böyük töhfə vermişik",-deyən Prezident İlham Əliyev vurğulayıb ki, bu il bizim xarici siyasətimiz çox fəal olub və xarici siyasət istiqamətində hesab edirəm ki, yeni önəmli addımlar atılıb və ölkəmizin beynəlxalq nüfuzu daha da artıb: "Nəticələr arasında, əlbəttə ki, Qoşulmama Hərəkatındakı uğurlu sədrliyimizi qeyd etmək istərdim. Bizim sədrliyimiz bildiyiniz kimi, 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadılıb. Bu, onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanmışdır və bizə olan inam bu illər ərzində daha da artmışdır. Biz də məsuliyyətli ölkə olaraq və Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişik. Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı idi və Parlament Şəbəkəsinin yaradılması idi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu Hərəkatın çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır."

### AZƏRBAYCAN PREZİDENTİNİN DAXİLİ SİYASƏTİNDƏ SOSİAL ƏDALƏT, ƏHALİNİN RİFAHI PRİORİTET İSTİQAMƏT TƏŞKİL EDİR

Prezident İlham Əliyevin rəhbərlik dövrü müasir-müstəqil Azərbaycanın tarixində sürətli iqtisadi inkişaf, dövlətin təşəkkül tapması, qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi uğurlar və böyük qələbələr dövrü kimi qalacaq. 2003-cü ildə Azərbaycan xalqının səsini və etimadını qazanaraq Prezident seçilən İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində iqtisadiyyat xeyli böyümüş, ümumi daxili məhsul 3,2 dəfə artmış, vətəndaşların sosial rifah halı yüksəlmişdir. Bu illər ərzində nominal əməkhaqqı 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, orta aylıq əməkhaqqı 7 dəfə, pensiyalar isə 10 dəfə yüksəlmişdir. Bu dövrdə Azərbaycan özünün iqtisadi və siyasi islahatlarını tam başa çatdırmış, 2018-ci ildən sonra isə dərin sosial islahatlar dövrünə qədəm qoymuşdur. 2018-ci il aprelin 11-də Azərbaycan xalqının növbəti dəfə etimadını qazanaraq böyük səs çoxluğu ilə Prezident seçilən İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial rifahın və sosial ədalətin bərqərar olması, vətəndaşlarımızın inkişaf etmiş bir dövlətdə yaşaması üçün lazım olan hər şeyi yerinə yetirəcəyini bəyan etdi. Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur.

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Dövlət başçımızın müşavirədə dediyi kimi: "Gələn il görüləcək işlər əminəm ki, ölkəmizi daha da gücləndirəcək. Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, vədlərə əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik - bütün sahələrdə, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın".

**RƏFİQƏ KAMALQIZI**

# İİTKM və MEDİA birgə təlim keçirib











Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) 22 iyul - Milli Mətbuat günü ərəfəsində biznes və iqtisadiyyat sahəsində ixtisaslaşan jurnalistlər üçün yay məktəbi formatında iki günlük təlim keçirib.

İİTKM-nın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, ”Şuşa ili” çərçivəsində keçirilən təlim tarixi-mədəni əhəmiyyətə və Azərbaycan xalqı üçün mənəvi dəyərə malik olan mədəniyyət paytaxtı - Şuşa şəhərində təşkil edilib.

Jurnalistlər üçün təşkil olunan yay məktəbində Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Məşğulluq Agentliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti və İİTKM-in əməkdaşları ”Dövlətin büdcə - vergi siyasəti”, ”Sosial siyasət”, ”Maliyyə-bank sektoru”, ”Elektron ticarət” və ”İqtisadi artım” mövzularında təlimlər keçib.

Tədbirin ikinci gününün sonunda iştirakçı media nümayəndələrinə sertifikatlar, təlimçilərə təşəkkürnamələr təqdim edilib. Təlim müddətində təlimçilər və jurnalistlər Cıdır düzündə olublar, Şuşa şəhərini gəzib və Şuşa qalası önündə xatirə fotosu çəkdiriblər. İki günlük təlimə 30-a yaxın TV və onlayn media nümayəndəsi qatılıb.

## DİN-dən xəbərdarlıq: ”Belə cəhd olarsa qarşısı alınacaq”

İyulun 20-də bir qrup şəxsin Nazirlər Kabinetinin inzibati binasının önündə aksiya keçirmək barədə çağırışlara münasibət olaraq bildiririk ki, icra hakimiyyəti orqanları ilə razılaşdırılmamış aksiyanın, kütləvi toplantının keçirilməsi yolverilməzdir. SİA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin bölmə rəisi Zeyni Hüseynov bildirib. O deyib ki, belə bir cəhd olarsa, müvafiq tədbirlərlə qarşısı alınacaq.



# “Səslənmiş mesajlar Ermənistan üçün sərt xəbərdarlıqdır”

**“Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin çıxışında səslənmiş mesajlar Ermənistan və Ermənistan rəhbərliyi üçün çox açıq, konkret və sərt xəbərdalıqdır. Bildiyimiz kimi ötən günlərdə cənab İlham Əliyevin iştirakı ilə bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirə keçirilib. Bu müşavirədə Dövlət Başçımız ötən dövr ərzində respublikamızın daxili və xarici siyasətində baş verən hadisələr, həyata keçirilən layihələr və görülmüş işlər haqqında çox ətraflı məlumat verdi. Bununla bərabər O qarşıdakı dövr üzrə də görüləcək işlər haqqında fikirlərini və yol xəritəsini bildirdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbrahimqızı deyib.**

Onun sözlərinə görə, möhtərəm Prezidendimizin çıxışının ən önəmli məqamlardan biri də postmüharibə dövründə bölgədəki siyasi-iqtisadi durum, baş verən geosiyasi proseslər haqqında idi: ”Məlumdur ki, 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Müzəffər Milli Ordumuz işğal altındakı torpaqlarımızı azad edərək, respublikamızın ərazi bütövlüyünü bərpa etdi və işğalçı dövlətin baş naziri 2020-ci il 10 noyabr tarixində kapitultasiya müqaviləsinə imza atmışdı. Bununla bərabər hər iki dövlət rəhbəri postmüharibə dövründə istər Moskva, istər Brüssel görüşmələrdə bu iki ölkənin üzərlərinə götürdükləri öhdəlikləri əks etdirin müqaviləyə imza atmışdı. Bu müqaviləyə əsasən gələcəkdə bu iki xalqın sülh, əmin-amanlıq şəraitində yaşamaları üçün hər iki tərəf konkret işləri icra etməlidir. Daha dəqiq desək imzalanmış bu sənədə əsasən sərhədlərin delimitasiyası, demorkasiyası gerçəkləşdirilməsi və sülh müqaviləsi imzalanmalıdır”.



Deputat sözlərinə belə davam edib: ”Çox təəssüf ki, Ermənistanın baş naziri bu müqavilələrə imza atsa da bugünədək konkret addımlar atmamışdır. Beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan və hörmət olunan Azərbaycan isə üzərinə götürdüyü öhdəliklərlə bağlı xüsusən sülh müqaviləsinin hazırlanması üçün işçi qrupunun yaradılması daxil xeyli işlər, görübdür. Fəxrlə deməliyik ki, bu müqavilədə əks olunmuş bütün məsələlər, xüsusən də sülh müqaviləsi ilə bağlı irəli sürülən təkliflər məhz cənab İlham Əliyev tərəfindən irəli sürülmüşdür. Möhtərəm Prezidentimiz də müşavirədə çıxışında məhz Ermənistanın Azərbaycan tərəfinin beynəlxalq hüquq norma və prinsipləri əsasında formalaşdırdığı təklifləri qəbul etməsinə baxmayaraq hələ də, konkret addımlar atmadığını bildirmişdi.

16 iyul tarixində Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilk dəfə görüşüblər. Möhtərəm Prezidentimiz çıxışında bu görüşdə konkret nəticələrin olacağına umidvar olduğunu və tezliklə Ermənistan tərəfinin də münasibətlərin normallaşması və öz öhdəliklərini yerinə yetirmələri üçün işçi qrupunun formalaşdıracağını bildirmişdi.

Qeyd etmək lazımdır ki, müharibədən 1 il 8 ay ötsə də Ermənistan heç bir addım da atmamışdır. Əlbəttə Ermənistanda ictimai-siyasi-iqtisadi mühit və durum hədsiz dərəcədə ağırdır. Buna baxmayaraq bu ölkəni idarə edənlər bir mənalı olaraq anlamalıdır ki, götürdükləri öhdəliklərini nə qədər gec yerinə yetirərsə durumları daha da ağırlaşacaq. Yəni ötən hər saniyə Ermənistanın ziyanınadır. Bildiyimiz kimi 10 noyabr Bəyannaməsində Ermənistanın götürmüş olduğu öhdəliklərdən biri də erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır.

Çox təəssüf ki, indiyədək bu problem həll olunmayıb. Möhtərəm Prezidentimiz çıxında bu problemlə bağlı dəfələrlə məsələ qaldırıldığını, Ermənistanın isə suni olaraq bunu uzatmasını bildirmişdi. Respublikamızın Prezidenti eyni zamanda, Rusiyanın hərbi rəhbərliyi qarşısında dəfələrlə bu məsələni qaldırdığını, eləcə də, bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksək vəzifəli təmsilçilərinin Azərbaycandakı səfərlərinfə diqqətlərinə çatdırdığını, onların isə iyun ayına qədər erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılacağına söz verdiklərini bildirmişdi. Çox təəssüf ki, hələ də bu məsələ öz həllini tapmayıb. Möhtətəm Prezidentimiz çıxışında Ermənistanın 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirməməsini, Rusiya sülhməramlılarının 10 noyabr Bəyannaməsini imzalamaslna baxmayaraq Ermənistanın dövlət rəhbərlərini buna məcbur etməməsini və bunun dözülməz vəziyyət olduğunu bildirdi. O, erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalmasının, eləcə də qalib ölkə kimi ərazi bütövlüyümüzü bərpa etdiyimiz halda yeni təhlekələrin qəbuledilməz olduğunu bildirmişdi. Dövlətimizin Başçısı çıxışında Azərbaycan ərazisindən Ermənistanın öz silahlı birləşmələrini çıxarmadığı halda Azərbaycanın konkret və adekvat planının olduğu fikirlərini bildirmişdi.

Hesab edirəm ki, möhtərəm Prezidentimizin çıxışında səslənmiş bu mesajlar 10 noyabr Bəyannaməsinin kobudcasına pozan Ermənistan və Ermənistan rəhbərliyi üçün çox açıq, konkret və sərt xəbərdarlıqdır”.

***Ayşən Vəli***




# Jurnalistlərin Şuşa təəssüratları

**Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi 22 iyul Milli Mətbuat günü ərəfəsində biznes və iqtisadiyyat sahəsində ixtisaslaşan jurnalistlər üçün yay məktəbi formatında ikigünlük təlim keçirib. Təlimdə Mərkəzi Bankın, Maliyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Vergi Xidmətinin, Dövlət Məşğulluq Agentliyinin eləcə də İİTKM-in əməkdaşları iştirak edib. 2 günlük təlimə 30-a yaxın TV və onlayn media nümayəndəsi qatılıb. Bəs, təlimdə iştirak edən jurnalistlərin Şuşada keçirilən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və Medianın İnkişafı Agentliyinin birgə təşkil etdiyi yay məktəbi ilə bağlı təəssüratları nədən ibarətdir?**

SİA mövzu ilə bağlı jurnalistlərin düşüncələrini öyrənib:

**”Yeni Azərbaycan” Qəzetinin əməkdaşı Günel Abbas bildirib ki, 22 İyul - Milli Mətbuat Günü ərəfəsində Şuşada olmaqdan qürur və xoşbəxtlik hissləri keçirir:**



”Bu gün Şuşa şəhəri azaddır və biz Mətbuat Gününü azad Şuşada qarşılayırıq. Əminəm ki, Ulu Öndərin ruhu da şaddır. Çünki o da məhz bu günləri görmək istəyirdi. Bu günün reallaşmasını vəsiyyət etmiş, Şuşanın Azərbaycanın ən gözəl guşələrindən birinə çevrilməsini arzulamışdır. Müzəffər Ali Baş Komandan tərəfindən Şuşa şəhəri və torpaqlarımız işğaldan azad olunandan bu günə qədər Şuşada arzuların gerçəkləşməsi istiqamətində böyük işlər görülüb. Gördüklərimizə əsasən demək istəyərdim ki, dövlətimiz hazırkı mərhələ üçün qarşıya qoyulan məqsədə çatıb. Bu səbəbdən dövlətimizin başçısına təşəkkürlərimi bildirirəm. Mən deyərdim, səfərdə bərabər iştirak etdiyimiz bütün həmkarlarım eyni fikirdədir. Biz hamımız bu heyrətamiz mənzərə üçün Ali Baş Komandana və Azərbaycan Ordusuna minnətdarıq.

Şuşa şəhərinə ikinci səfərim olsa da, ilk dəfəki qədər həyəcanlıyam. Şuşa hər bir azərbaycanlının görmək istədiyi məkandır, xalqımızın ibadətgahıdır. Bu gün bizimlə bir yerdə səfərdə iştirak edən həmkarlarımızın hər biri Şuşa sevincini yaşayır. Şuşada aparılan quruculuq işlərinin xoş xəbərlərini eşidir, bu barədə yazırdıq. Artıq bu gün öz gözlərimizlə gördüyümüz yüksək səviyyəli yenidənqurma işlərindən öz dostlarımıza danışacağıq, çalışdığımız media orqanlarında işğaldan azad olunmuş ərazilərdə görülən işləri geniş işıqlandıracağıq. Buna görə özümüzü çox xoşbəxt hesab edirik”.

**AZƏRTAC İnformasiya Agentliyinin əməkdaşı Zaur Mirzəyev** qeyd edib ki, Şu-



şada jurnalistlər üçün belə bir təlimin keçirilməsi böyük əhəmiyyətə malikdir: ”Biz bu təlim sayəsində həm iqtisadi sahədə təcrübələrimizi genişləndirəcəyik, həmçinin də işğaldan azad olunmuş Şuşanı gəzdik gördük. Jurnalistlər arasında Şuşaya ilk dəfə gələnlər də vardı. Bu səbəbdən düşünürəm ki, bu cür təlimlərin keçirilməsinə ehtiyac var. Jurnalistlər üçün Şuşada yay məktəbi təşkil olunduğuna görə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə və Medianın İnkişafı Agentliyinə minnətdarlığımı bildirirəm”.

**”Modern.az” saytının əməkdaşı Aysel Aslanın** fikirlərinə görə, Şuşada jurnalistlər üçün təşkil edilən yay məktəbi biznes sahəsi ilə əlaqədar önəmli məlumatları özündə əks etdirən vacib təlimlərdən ibarət idi: ”İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə Medianın İnkişafı Agentliyinin birgə təşkil etdiyi 2 günlük təlimdə vergi, maliyyə və bank sektoru, gömrük, sığorta, həmçinin rəqəmsal iqtisadiyyat və digər



mövzularda peşəkar ekspertlərin təqdimatlarını dinlədik, suallarımızı ünvanladıq.

Düşünürəm ki, iqtisadiyyatın ciddi əhəmiyyət daşıdığı bir dönəmdə jurnalistlərin məhz bu sahədə peşəkar təlimə cəlb edilməsi önəmli addım idi. Əldə etdiyimiz biliklərin hazırlayacağımız məqalələrdə çox köməyimizə gələcəyinə inanıram.

Yay məktəbini mənim üçün önəmli edən digər məqam da məhz Şuşada təşkil edilməsi idi. Vətən müharibəsindən sonra ilk dəfə Şuşanın möhtəşəmliyini canlı görmək imkanım oldu. Mədəniyyət paytaxtımızın hər daşında Vətən müharibəsində can qoyan igidlərimizin izləri, qeydləri var. Həmkarlarımızla birlikdə Şuşanın gözəlliyindən zövq alaraq, şəhidlərimizin ruhuna dualar oxuduq. Buna görə, jurnalistlərin Şuşada keçirilən Yay məktəbinin təşkilatçılarına təşəkkürümü bildirirəm”.

**”Vision TV”nin əməkdaşı Orxan Kərimov** bildirib ki, hər bir azərbaycanlının görmək arzusunda olduğu bir şəhərdə - Şuşadayıq: ”İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə keçiri-



lən yay məktəbi burada iştirak edən hər bir jurnalist üçün çox əhəmiyyətlidir. Çünki biz bu təlim sayəsində təcrübəmizi genişləndirəcəyik. Düşünürəm ki, işğaldan azad olunmuş ərazilərdə jurnalistlər üçün bu cür təlimlərin keçirilməsinə böyük ehtiyac var. Bu baxımdan İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinə və Medianın İnkişafı Agentliyinə öz təşəkkürlərimi bildirirəm”.

**”Yeni Müsavat” qəzetinin əməkdaşı Nigar Həsənli qeyd edib ki, bu, mənim Şuşaya ilk səfərimdir:** ”Qarabağ işğaldan azad olunan gündən bu günü arzulayırdım. Nəinki, Şuşa, ümumiyyətlə Qarabağa ilk dəfədir gəlirəm. İlk səfərdə məhz Şuşada olmağıma görə ikiqat sevincliyəm, qürurluyam. Cıdır düzündə gəzərkən, dərəyə baxdıqda bu qürur daha da artdı. İgidlərimizin



bu qayalara necə qalxdığı haqqında çox eşitmişik. Gözlərimizlə görmək tamam başqa imiş. Dərəaşağı baxdıqda insan istər-istər vahimələnir.

Qəhrəmanlarımızın günlərlə davam edən müharibənin yorğunluğuna, ağırlığı artıran silah-sursata rəğmən o qayalara qalxdığını düşündükcə insan heyrətini gizləyə bilmir. Bu, necə mümkün olub axı? Bu qüruru bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Qazilərimizə şəfa arzu edirəm.

Qarabağ artıq dirçəlir. Şuşa böyük tikinti meydanını xatırladır. İşçilər hətta gecələr də çalışırlar ki, layihələri vaxtında təhvil verə bilsinlər. Yollar çəkilir, binalar tikilir, şəhərdə infrastruktur müasir standartlara uyğun davam etdirilir.

Qarabağımızı, o cümlədən səfər edənlərin təhlükəsizliyini qoruyan əsgərlərin, polis əməkdaşlarının rolunu da vurğulamaq istərdim.

22 iyul Mətbuat günü ərəfəsində, ”Şuşa ili”ndə Şuşaya səfər təşkil edən MEDİA və İİTM-yə yüksək səviyyəli təşkilatçılıq üçün təşəkkür edirəm”.

***Arzu Qurbanlı***



## DİQQƏT: Ərzaq məhsullarının qiyməti bahalaşıb?

### *İQTİSADÇI DANIŞDI*

**“Ərzaq məhsullarının qiymətinə əsas təsir göstərən yanacaq növü Aİ-92 markalı benzin və dizel yanacağıdır”. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov bildirib.**

Onun sözlərinə görə, hazırda dizel yanacağının və Aİ-92 markalı benzinin qiymətinin qalxmaması və ya əvvəlki qiymətdə qalması ərzaq məhsullarındakı qiymətlərin bahalaşmasına birbaşa təsir etmir: ”Aİ-95 markalı benzinin qiymətinin artmasının psixoloji olaraq ərzaq məhsullarına təsiri vardır. Amma Aİ-95 markalı benzinin qiymətinin artmasının ərzaq məhsullarının maya qiymətinin bahalaşmasına heç bir təsiri yoxdur”.

***Abutel İlhamqızı***



# Səbr kasası daşır və XƏBƏRDARLIQ EDİLİR!



***Cari ilin, 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bir sıra məqamlara aydınlıq gətirildi. Ələlxüsus ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin müşavirədə söylədiyi giriş nitqi maraqla qarşılandı və həmin nitq əsnasında toxunulan məqamlar geniş ictimaiyyətin diqqətini cəlb etdi. Ölkə rəhbəri bu ilin altı ayı ərzində Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atıldığını dilə gətirdi və real nəticələrin hələki əldə olunmadığını da qeyd etdi.***

”Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq əfsuslar olsun ki, Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir”, deməklə cənab Prezident həm Ermənistan tərəfinə xəbərdarlıq etdi, həm də sülhə çağırış etmiş oldu. Doğrudur, ölkəmizin təşəbbüsü ilə sərhədlərin delimitasiya üzrə işçi qrupların birinci görüşü də keçirildi və ölkə rəhbərimizin qeyd etdiyi kimi, bu formatdan tez bir zamanda nə isə gözlənilmir. Məsələ burasındadır ki, delimitasiya kimi uzun bir prosesdə Ermənstanın maraqlı olduğu görünmür, əksinə, Ermənistan tərəfinin maraqlı olmadığı özünü göstərir. ”İkinci görüş artıq praktik məsələlərin müzakirəsinə həsr olunacaq”, deyən ölkə rəhbərimiz Ermənistan tərəfinə sadəcə xəbərdarlıq elədi və rəsmi İrəvan bundan nəticə çıxarmalıdır. Nəticə çıxarmalıdır ki, rəsmi Bakı Ermənistan tərəfinin vaxtı uzatması ilə belə razılaşmayacaq və bundan sonra 30 il də gözləmək kimi bir fikir yoxdur, yaxud artıq heç bir güzəştdən söhbət gedə bilməz.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş baza prinsipi Ermənistan tərəfindən qəbul edilib və bu barədə də sözügedən müşavirədə ölkə başçısı xatırlatma etdi. Bu isə əslində, Ermənistanın bu məsələdə konkret addımlar atmaq kimi bir öhdəliyi haqda xəbərdarlıq idi. Onu da qeyd edək ki, rəsmi Bakının irəli sürdüyü təklif, 5 baza prinsipi barədə cənab Prezidentin xatırlatma etməsi də təsadüfi sayıla bilməz. Ermənistan rəhbərliyinin qeyd-şərtsiz qəbul etdiyi təklif beynəlxalq hüquqi norma və prinsipləri əsasında formalaşıb, bu məsələni qonşu dövlətlər olan Türkiyə, Rusiya, İran, eyni zamanda Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları müzakirə edib və bəlli olur ki, bunu da ölkə rəhbərimiz əbəs yerə xatırlatmadı, öhdəliklərin yerinə yetirilməsinin vacibliyi barədə xəbərdarlıq etdi. Bu, həm də bir mesaj olaraq qəbul olunur və bu mesaj ondan ibarətdir ki, məsələ təkcə rəsmi Bakının deyil, regionda marağı olan dövlətlərin də diqqət mərkəzindədir.

Ölkə rəhbərinin müşavirədə öz çıxışı, giriş nitqi zamanı xatılamalar, eləcə də xəbərdarlıqlar etməsi yenə də, növbəti dəfə siyasi iradənin bariz nümunəsi kimi qəbul olunmaqdadır. Ermənistan tərəfinin 10 noyabr 2020-ci il tarixində imzalanmış Bəyannamədə təsbit edilən məsələlərdən boyun qaçırmaq istəyi, niyyəti göz önündədir və cənab Prezidentin də bu barədə qeyd etməsi, işğalçı tərəfin məcburi şəkildə kapitulyasiya sənədinə imza atması barədə xatırlatması, 44 günlük müharibənin məntiqi nəticəsi olan məğlubiyyətlə qarşılaşmış Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetiməli olduğu xəbərdarlığıdır.

Bilirik ki, Ermənistanın məğlubiyyəti, Azərbaycanın isə Zəfəri ilə müharibə başa çatdıqdan sonra Rusiya sülhməramlıları bəzi ərazilərdə yerləşdirildi. Məqsəd erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması idisə də bu məsələ hələ də öz həllini təəssüf ki, tapmayıb. Təbii ki, bu da Azərbaycan tərəfini narahat etməyə bilməz və cari ilin altı ayının yekunlarına dair müşavirədəki giriş nitqində cənab Prezidentin bu barədə qeyd etməsi tam yerinə düşdü. Əlbəttə ki, 10 noyabr bəyanatının 4-cü bəndinin tələblərinin yerinə yetirilmədiyi, yəni işğalçı qüvvələrin Azərbaycan ərazilərindən çıxarılmadığı barədə ölkə rəhbərimizin diqqətə çatdırdığı məqamlar məsələnin ciddi xarakter aldığından xəbər verir və bir çox politoloqlar bunu regionda yeni hərbi əməliyyatlar barədə xəbərdarlıq kimi şərh edirlər. İşğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsini təmin edəcək sülhməramlılar öz missiyalarını yerinə yetirməyibsə, az qala iki il keçməsinə baxmayaraq bu məsələ öz həllini tapmayıbsa və bu barədə qeyd edilirsə, deməli, regionda yeni hərbi əməliyyatlara ehtiyac duyulur və söylənilənlər xəbərdarlıq olaraq qəbul edilir.

Azərbaycan Ordusunun Fərrux yüksəkliyini, Fərrux kəndini bu ilin mart ayında erməni separatçılarından təmizləməsini əslində, böyük bir mesaj, xəbərdarlıq kimi ermənilər də ruslar da dərk etməli idilər. Dərk etməli idilər ki, separatçıları istənilən vaxt Azərbaycan özü, öz gücü ilə qovmaq iqtidarındadır və əgər həmin erməni separatçılarının ölkəmizin ərazisindən çıxarılması həmin o sülhməramlılar tərəfindən təmin edilmədikdə, separatçılar ərazilərimizi tərk etmədikdə Azərbaycan bu işin öhdəsindən də müharibədə olduğu kimi, ən tez zamanda layiqincə gələ bilər. Bu, həm separatçı ermənilərə, rəsmi İrəvana, həm də bu missiyanı öz üzərinə götürən Rusiyaya bir mesajdır. Həmin mesajın mahiyyəti də ondan ibarətdir ki, əvvəla, əgər erməni separatçıları ərazilərimizi tərk etməsələr onlar hərbi əməliyyatlarla buna məcbur ediləcəklər. Digər tərəfdən də sülhməramlılar öz missiyalarını yerinə yetirə bilmədikləri üçün ümumiyyətlə regionu tərk etməli olacaqlar.

Göründüyü kimi, Azərbaycan tərəfinin səbr kasası daşır və Ermənistana xəbərdarlıq edilir. Bu xəbərdarıq elə hərbi əməliyyatların istənilən anda başlaya bilməsi barədədir. Ermənilərin indi kürkünə birə düşüb, çünki cari ilin ilk altı ayının yekunlarına dair keçirilən müşavirədəki giriş nitqində ölkə rəhbərimiz bir növ, yeni əməliyyatların anaonsunu verdi. Çox güman ki, bu sonuncu xəbərdarlıqdır və ən qısa zamanda ermənilər bundan nəticə çıxarmasalar hansı sonluqla qarşılaşacaqlarını gözlərinin önünə almalıdırlar. Dərk etməlidirlər ki, bütün hərbi kontingenti, silah-sursat arsenalı, hərbi texnikası ilə Azərbaycanın qarşısında 44 gündən artıq davam gətirə bilməyiblərsə, deməli sadalananlar əldə getmiş indiki hallarında bir gün belə müqavimət göstərə bilməyəcəklər və separatçıların ərazilərimizdən qovulması ermənilərə baha başa gələcək.

***İnam Hacıyev***

# ”Erməni tərəfi Azərbaycan Prezidentinin xəbərdarlıqlarından nəticə çıxarmalıdır”

**“2022-ci ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev bu dövrdə əldə olunan nəticələri müsbət qiymətləndirdi. Açıqlanan göstəricilər ölkəmizin dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Sevinc Fətəliyeva deyib.**

Onun sözlərinə görə, müşavirədə ölkəmizin xarici siyasəti, beynəlxalq əməkdaşlıq məsələləri də xüsusi diqqət mərkəzində oldu: ”Cənab Prezident ölkəmizin bu sahədə uğurlarını xüsusi vurğuladı. Bu baxımdan, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi səmərəli fəaliyyəti, təşkilatın Parlament Şəbəkəsinin yaradılmasının önəmi qeyd edildi. Bundan başqa, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində dünyanın 80-dən çox ölkəsinə yardım göstərib. Eyni zamanda, türk dövlətləri, qonşu ölkələrlə əlaqələrin daha da gücləndirilməsi diqqət mərkəzində olub. Həmçinin, Avropa İttifaqı ilə əməkdaşlığın önəmi vurğulanıb.



Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, müşavirədə dövlət başçısı post müharibə dövründə baş verən proseslərə münasibət bildirib, Ermənistanın 10 noyabr razılaşmalarına əməl etmədiyini deyib: ”Belə ki, 10 noyabr bəyanatının 4-cü bəndinə əsasən erməni silahlı qüvvələri Qarabağ ərazisindən tam çıxarılmayıb. Bundan əlavə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu və avtomobil yolu təmin olunmalıdır. Amma Ermənistan bu razılaşmaya da əməl etmir. Halbuki, Azərbaycan Laçın dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Ermənistanın da borcudur ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsin.

Sevinc Fətəliyeva qeyd edib ki, son vaxtlar Ermənistanın hakimiyyət nümayəndələri Qarabağın statusu haqqında da tez-tez fikirlər səsləndirirlər. 10 noyabr razılaşmalarında statusla bağlı heç bir müddəanın olmadığını xatırladan millət vəkili deyib ki, Prezident İlham Əliyev statusun ünvanını dəqiq göstərib. Deputatın fikrincə, erməni tərəfi Azərbaycan Prezidentinin xəbərdarlıqlarından nəticə çıxarmalı, sülhə gəlmək üçün pozitiv addımlar atmalıdır. Əks halda, qeyri-konstruktiv mövqe məhz rəsmi İrəvan üçün problemlər yaradacaq”.

***Arzu Qurbanlı***

# Xaricdə təhsil almalı, yoxsa ? Azərbaycanda



ARAŞDIRMA

Hər bir gənc illərini sərf edəcək universitet həyatında yüksək keyfiyyətli təhsil almaq istəyir. Yerli özəl universitetlərin bir çoxunda tədrisin yüksək səviyyədə olmasına baxmayaraq, həmin universitetlərdə illik təhsil haqqı qiymətlərinin yüksək məbləğdə olması səbəbindən dolayı tələbələr özəl universitetlərdə təhsil almaqdan imtina edirlər. Xaricdə təhsil şöbəsinin 2003-cü ildən bəri statistikaların nəticələrinə görə xarici universitetlər yerli universitetlərə nisbətən aşağıdakı kimi müqayisə olunur. Həm təhsil, həm təcrübə, həm də laboratoriya şəraitlərinə baxdıqda xaricdə təhsil ölkəmizdəki təhsildən qat-qat üstün sayıla bilər. Amerika, Kanada, İngiltərə kimi yerlərdə təhsilin keyfiyyəti və reytinqi dünyanın ən qabaqcıl yüz universitetinə rəhbərlik edir.

## Bəs xaricdə təhsil almaq üçün nə qədər xərc tələb olunur?

Araşdırmalara görə, Slovakiya, Çexiya, Polşa və Latviya Avropada hələki ən uyğun şərtlərlə (qəbul şərtləri, təhsil haqqı, viza və s.) təhsil təklif edən ölkələrdir. Məsələn, illik təhsil haqları Polşa universitetlərində 1.000-5.000, Çexiya universitetlərində 700-5.500, Latviyada 2.100-6.500 və Slovakiya universitetlərində isə 1.000-3.500 avro arasında dəyişir.

Prezident İlham Əliyevin fevralın 28-də gənclərin xarici ali təhsil müəssisələrində iki təhsil pilləsi - bakalavr və magist üzrə təhsillərinin maliyyələşməsi haqqında sərəncamına əsasən 2022-2026-cı illəri əhatə edən proqram tam təqaüd verilməli və təhsil, viza və təhsil aldığı ölkədə qeydiyyat, aylıq yaşayış, tibbi sığorta xərcləri, beynəlxalq nəqliyyat, bank və plastik kart xərcləri qarşılamalıdır. Bundan əlavə, digər iştirakçılardan fərqli olaraq, beynəlxalq olimpia qaliblərindən DİM imtahan nəticəsi də tələb edilmir.

**Bakı Mühəndislik Universitetinin prorektoru, təhsil eksperti Elçin Süleymanov** SİA-ya açıqlamasında bildirir ki, xaricdə



təhsil alacaqsa birinci növbədə sözügedən təhsil məqsədli olmalıdır. Burada iki istiqamətdə düşünməlidir: biri savadlı, qabiliyyətli, istedadlı tələbələri daha strukturlu, onların biliklərinə cavab verən universitetlərə güzəştli şərtlərlə və təqaüdlə dövlətin hesabına və ya universtetin hesabına olmalı,

ikinci isə Azərbaycanda daxili universitetlərə qəbul ola bilməyən, müəyyən reklamlarla, atestatla Ukrayna, Türkiyəyə göndərilən tələbələrdir. Bundan əlavə olaraq ən pisi də bu dövlətlərə qeyri-qanuni qeydiyyatsız reklam yerlərinin də adı olub, lakin məkanı olmayan yerlərlə qarşılaşılmaqdır. Bu kimi dələduzlarla qarşılaşmamaq üçün kifayət qədər məlumat yığmalı və araşdırılmalıdır. Gürcüstan, Ukrayna, Türkiyənin əyalətlərdəki universitetlərə gəldikdə isə Azərbaycanda yaxşı bal toplamayan birinin xaricdə yaxşı bir mütəxəssis olması çox da inandırıcı deyil. Düzdür istisnalar var. Amma ümumi götürdükdə xaricdə təhsil yerli universitetlərdə ki təhsildən daha çətindir.

Ümumi olaraq həm Avropada, həm Amerikada yaşamış biri olaraq deyə bilərəm ki, bakalavr təhsili üçün əgər spesifik bir ixtisas deyilsə xaricdə oxumağa çox da ehtiyac yoxdur. Çünki Azərbaycanda bir neçə universitet var ki, onlarda bakalavr təhsil, heç də xaricdən geri qalmır. Amma magistr təhsilinə görə, dünya universitetlərinə üz tutmağa dəyər. Ona görə ki onlarda laboratoriya imkanları genişdir, həm də şəxsiyyətin formalaşması üçün daha faydalı olar. Orada təkcə dövlət proqramı yox, həmçinin universitetlərin özlərinin təsis etdiyi müxtəlif proqramları, imkanları olur. İstiqamət olaraq isə artıq gələcəyimiz kompüter texnologiyaları, marketinq, data analitik, gen mühəndisliyi, ekoloji kənd təsərrüfatı məhsulu, enerji mühəndisi, maliyyə mühəndisliyi və sairə bütün bu sahələr gələcəkdə ən çox ehtiyacı olan sahələrə yönəlməlidir.

Digər **Təhsil eksperti Kamran Əsədov** isə qeyd edir ki, hal-hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 21 mini qardaş Türkiyədə, 8 mini Ukraynada, 6 mindən çoxu Rusiya, Gürcüstan universitetlərində təhsil alır.



Xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burada ali məktəblərə qəbul olmağa imkan verməyənlərlədir ki, bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər.

Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar belə, qeyri - qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər.

İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün onlar xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, komputer və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur.

Üçüncü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən "Xaricdə təhsil Dövlət Proqramı" çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülür. Xaricdə Təhsil proqramı ilə gəncləri daha çox müəyyən edilmiş prioritet ixtisaslar - beynəlxalq münasibətlər, tibb, baytarlıq, kənd təsərrüfatı, mühəndislik, yüksək texnologiyalar, qədim dillər ixtisasları əhatə edir.

Hal-hazırda ən ciddi problem xarici ölkələrdə təhsil alanların diplomlarının tanınması ilə bağlıdır. Bu bəzi hallarda xarici təhsil xidməti göstərən şirkətlərin şəxsi kommersiya maraqları ucbatından baş verir. Belə ki, lisenziya müddəti bitmiş və akkreditasiyası olmayan universitetlərə qəbul həyata keçirilir. Ona görə də valideyinlər yalnız xaricdə təhsil ilə bağlı mütəxəssislərə müraciət etməlidirlər. Valideyinlər bilməlidir ki, övladlarını Türkiyəyə qiyabi təhsil almağa göndərirlərsə, onun diplomu birmənalı olaraq tanınmayacaq, çünki Türkiyədə qiyabi təhsil yoxdur. Bundan başqa tələbələr oxumağa getdikləri ölkədə qiyabi təhsil alacaqlarsa azı 15 gün, əyani təhsil alacaqlarsa 90 gün semester ərzində o ölkənin ərazisində olmalıdırlar.

Bundan başqa hər bir xarici ölkəyə oxumağa gedən şəxs eric-naric sistemində o universitetin olub-olmamasını yoxlamalıdır. Bunlarla yanaşı xarici öılkələrdə oxumağa gedənlər o ölkənin dilini və tədris dilini bilmirlər ki, bu da sonradan onların diplomlarının tanınması zamanı maneəyə səbəb olur.

Dövlət Proqramının əsas məqsədinin rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkəmizin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, istedadlı gənclərin dünyanın inkişaf etmiş ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin səmərəliliyinin artırılmasını təmin etməkdən ibarət olduğunu nəzərə alsaq, qeyd olunun ixtisaslar çox vacibdir.

### Bəs gəncləri xarici universitetlərə cəlb edən nədir?

Türkiyənin "Hacettepe" universitetində Çağdaş Türk Ləhcələri və ədəbiyyatları ixtisasında təhsil alan gəncimiz Səidə İsmayılova bu haqda bir neçə sualımızı cavablandırıb.

### Xaricdə təhsil almağınıza səbəb kimi nəyi göstərə bilərsiniz?

Yəni ölkəmizdə davam edə bilərdiniz. Bakalavr təhsilimin son ilində həm Azərbaycanda magistratura təhsili almaq üçün imtahan verdim, həm də Türkiyə Bursları proqramına müraciət etdim. İmtahan nəticəsində Azərbaycanda da istədiyim universitetə, istədiyim ixtisasa qəbul almışdım - BDU, Dünya ədəbiyyatı ixtisası. Bu nəticədən sonra Türkiyədən də qəbul aldım və hazırda Türkiyə Bursları proqramı çərçivəsində təhsilimi davam etdirirəm.



Hansı ki həm təqaüd alıram, həm ödənişsiz təhsil alıram, yataqxana, sağlamlıq sığortası ilə təmin olunuram və s. Bu fürsəti əldən verə bilməzdim, çünki həm fərqli təcrübələri sevirəm, həm də bu ixtisasın Türkiyədə daha yaxşı tədris edildiyi qənaətindəyəm. Ümumiyyətlə, mənim üçün "harada olmaq?" yox, "nəyi harada etmək?" sualının cavabı önəmlidir.

Ölkəmizdə təhsil aldığım müddətdə BDU-da Filologiya üzrə təhsil almağıma dair heç vaxt peşmanlıq hiss etməmişəm, fəqət çatışmazlıqlar vardı, buna görə də təhsilimi başqa yerdə davam etdirmək qərarına gəldim. Ölkəmizdə təhsillə bağlı problemlər sadəcə qurumlarla - məktəb, lisey, kollec, universitetlərlə və s. bağlı deyil. Bununla yanaşı, şagird və tələbələr üçün təmin edilmiş şərait də ürəkaçan deyil. Ümid edirəm, bu problemlərin həll olunması yolunda lazımi addımlar atılar.

***Havar Şəfiyeva***

# Ermənilərdən ETİRAF:

## Hər şey pisdir, amma daha da pisləşəcək

***...Yox, deyəsən, bu əvvəlkilərə bənzəmir. O boyda kişi, Avropa diplomatiyasının rəhbəri Josep Borrell özü Rusiyaya qarşı sanksiyaların artıq işləməyə başladığını deyib. Doğrudur, onun dediyinə görə, sanksiyalar hələlik tam effekt verməsə də, amma yaxınlarda nəticəni tuslar özləri də görəcəklər. Ukraynadakı müharibənin hələ uzun müddət davam edəcəyini deyən Borrell Avropa ölkələrini "strateji səbr" nümayiş etdirməyə çağırmağı da unutmayıb. Bu gün prezident Vladimir Putinin hələ də özünü "şıx" göstərməsinə baxmayaraq, Borrell onun bu hərəkətlərinin heç vaxt iqtisadi mülahizələrə əsaslanmadığını deyir.***



Onun sözlərinə görə, Putin hələ ki, "siyasi iradiliyin sehrli gücünə" inanır, lakin bu, əbədi davam t məyəcək. Yəni mümkün deyil.

"...Ona görə də Avropa strateji səbir nümayiş etdirməlidir. Müharibə uzun sürəcək, güc sınağı davam edəcək. Bizim başqa seçimimiz yoxdur. Rusiyanın üstünlüyü əldə etməsinə imkan vermək ona demokratiyalarımızı və qaydalara əsaslanan beynəlxalq dünya nizamının əsasını məhv etməyə imkan vermək deməkdir".

...Əgər Avropa diplomatiyasının rəhbəri öz bloqunda bunları yazırsa, deməli, məsələ artıq ciddiləşir. Onda, vay biz ermənilərin halına. Çünki, dünya da olmasa, hər halda az-çox biz erməniləri tanıyanlar, bizi həmişə rusun tulas...ey tərəfdaşı kimi tanıyıblar.

İndi bunlar ki, belə başlayıblar, deyəsən, rusun sabahı elə də nurlu görünmür. Onda, vay bizim də halımıza. Bütün bunlar bizi artıq ayaqlar altında qalmağa sürükləyir. Ona görə də, gəlin özümüzü aldatmayaq və ölkəmizdə baş verənlərin mənfi nəticələrindən qaça bilməyəcəyimizi etiraf edəyin.

Ermənilər Avropa İttifaqı iqtisadiyyatının partlayacağı təqdirdə, o zaman həddən artıq amillərdən asılı olan "erməni iqtisadiyyatı"nın ən ağır dövrlərlə üzləşməli olacağını da gizlətmirlər.

Qeyd edilməlidir ki, qazı hələ də ucuz qiymətə aldıqlarını deyən ermənilər Kremlin hər an bu qiyməti bahalaşdıra biləcəindən ehtiyatlanırlar.

Əslinə qalsa, Borrell demiş, sanksiyalar effekt verərsə, bu zaman rusun bu addımı atacağı da inandırıcı görünür. Bundan əlavə, ermənilər də təbii qazın Rusiya üçün heç vaxt təkcə əmtəə olmadığını, bu, rusun dünyanın müəyyən ölkələrinə siyasi təzyiq rıçaqı olduğunu yaxşı bilirlər.

Ermənilər bunun Ukrayna uğrunda gedən döyüşün nəticəsindən asılı olacağını da başa düşürlər.

Əslində, ermənilər özləri də dedikləri kimi, indi onlar "bəzənirəm xanım döyür, bəzənmirəm ağam" məsəlinin qəhrəmanına bənzəyirlər. Yəni bu gün onların Rusiyanın tərəfində olmağa məcbur olmaları onları Avropnın, Avropanın yanında olmaq istəkləri isə Rusiyanı "qane etmir".

Bu arada ABŞ-dan Ermənistana qarşı ən sərt sanksiyaların tətbiq oluna biləcəyinə dair konkret siqnallar da eşidilməkdədir. Deyim ki, bunu deyən ermənilər, belə bir qarışıq məqamda Azərbaycan rəhbərliyinin apardığı siyasətə paxıllıq belə etdiklərini də gizlətmirlər.

Vaşinqton və Brüsseldə Azərbaycanın "Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını" qüdrətlə və əsas sözlərlə eşitmək olduğunu etiraf edən ermənilər "reallıqda bunu cəfəngiyyat" kimi qələmə verməyə çalışırlar.

Onlar buna "səbəb" kimi, Rusiyanın Avropa İttifaqı və İsveçrəyə ildə 145 milyard kubmetrə qədər təbii qaz verdiyi halda, Azərbaycanın bu qədər qaz verə bilmək iqtidarında olmadığını göstərirlər.

"...Amma rəsmi Bakı Avropaya təbii qazın tədarükündə kiçik iştirakından siyasi, hətta maliyyə baxımından da dividentləri maksimum dərəcədə sıxışdırmağa çalışır. Təəssüf ki, uğur qazanırlar". Bu erməni etirafıdır...

Bax, erməniyə bir an da olsa rahatlıq verməyən də budur.

***Ağasəf Babayev***

## "Ermənistanda baş verənlər hərbi çevrilişin baş verməsinə də gətirib çıxara bilər"

"Ermənistan daxilində parlamentdə müxalifətlə iqtidar arasında ciddi böhran hökm sürür, müxalifət mandatdan imtina edir. Bu da növbəti mərhələdə Ermənistanda parlament böhranına gətirib çıxara bilər". Bunu politoloq Məhəmməd Əsədullazadə SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, Ermənistan Baş Qərargah rəisinin, "Qarabağ klanı"nın nümayəndəsinin də gətirilməsini Ermənistanın siyasi daxilində anlaşılmazlıq kimi də qiymətləndirə bilərik: "Çünki "Qarabağ klanı" Nikol Paşinyana qarşıdır və onların nümayəndəsinin Baş Qərargah rəisi olan şəxsdə Paşinyanın istefasını tələb edənlərdən biri olub. Ona görə də, düşünürəm ki, Ermənistanda daxili siyasi böhranın normallaşması istiqamətində hər hansı bir ciddi və müsbət irəliləyişlər olmayacaq. Müəyyən müddət bu böhranın Ermənistanda davam etməsi gözlənilir. Bu böhranda təbii ki, Ermənistan hakimiyyətinin Azərbaycanla bağlı normallaşma siyasətinə qarşı daxili etirazların baş verməsi ilə nəticələnir. Burada ümumi bir siyasi böhrana gətirib çıxarır, amma buna baxmayaraq, Nikol Paşinyan təbii ki, hakimiyyətdən getməyəcək və növbəti seçkilərə qədər baş nazir postunda qalacaq. Təbii ki, Ermənistan hakimiyyəti çalışır ki, hakimiyyətinin yekdilliyini qoruyub saxlasın".

Məhəmməd Əsədullazadə onu da bildirdi ki, "Qarabağ klanı"n təmsilçilərinin parlamentdə olması və həmin müxalifətin iki ay ərzində etirazlar aksiyaları keçirməsi, hakimiyyəti istefaya çağırması indi onların bir necəsinin mandatdan məhrum edilməsi istiqamətində hüquqi prosedurun başlanması təbii ki, Ermənistan siyasi mühitində ciddi siyasi böhran deməkdir: "Amma baş verənlər siyasi xaosa, hərbi çevrilişin baş verməsinə də gətirib çıxara bilər. Göründüyü kimi, Nikol Paşinyanın hələ də Ermənistanda siyasi proseslərə tam nəzarət etmədiyini göstərir".

***Gülyana***



# İnsanlığa qiymət şəhid və qazilərimizə verilən dəyərdən keçir




Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ana xəttini əhalinin sosial rifahı təşkil edir. Bu istiqamətdə ardıcıl olaraq həyata keçirilən islahatlar nəticəsində təkcə cari il ərzində üçüncü sosial islahat paketi çərçivəsində 3 milyon 400 min vətəndaşı əhatə edən böyük bir islahatlar paketi icra olunub. Bu paket çərçivəsində əməkhaqqı seqmenti üzrə 1 milyon 200 min vətəndaşımıza əlavə olaraq 1 milyard 100 milyon manat məbləğində əməkhaqqı artımları edilib. Minimum əməkhaqqı 20 faiz artırılaraq 300 manata çatdırılıb. Eyni zamanda, bir çox sektorda çalışanların əməkhaqları ciddi şəkildə artırılıb. Orta pensiya 11 faiz artaraq 364 manata, yaşa görə pensiya 395 manata çatıb. Sosial müavinətlər 34 faiz, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri isə 26 faiz artırılıb. Bu siyasət ardıcıl həyata keçirilən proqramın tərkib hissəsidir. Bütün bu və ya digər göstəricilərlə yanaşı, Vətən müharibəsində şəhid olanların ailələri, müharibə əlilləri, müharibə iştirakçılarının sosial müdafiəsinə dəstək tədbirləri reallaşıb.

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı müşavirədə giriş nitqində bildirdiyi kimi, "Öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır. Müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir. Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu, reallıqdır".

Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür. Ötən dövr ərzində şəhid ailələri və müharibə əlilləri üçün icra olunan ən geniş və mühüm fəaliyyətlərdən olan mənzillə təminat proqramı 5 dəfə genişləndirilib.



## ŞƏHİD AİLƏLƏRİNİN VƏ MÜHARİBƏ ƏLİLLƏRİNİN MƏNZİL TƏMİNATI YEKUNLAŞDIRILACAQ

Müharibədə əlil olmuş demək olar ki, bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olunublar. Postmüharibə dövründə 100 min unikal fərdə 193 min xidmət göstərilib. Bunun ən böyük istiqaməti sosial ödənişlərdir. Sosial ödənişlər çərçivəsində 94 min unikal şəxsə 105 min sosial ödəniş təyin olunub. Bu ödənişlərin məbləğləri - ötən il sosial müavinətlər 60 faiz, bu il isə təqaüdlər 60 faiz artırılıb. Bu ödənişlərin mütləq əksəriyyəti proaktiv qaydada - sənədlərin elektron qaydada toplanması ilə əlaqədar şəffaf şəkildə baş verib. Bu il bu kateqoriyadan olan insanlara 600 mənzil artıq təqdim edilib və nəzərdə tutulan plan 1500 mənzildir. Növbəti iki ay ərzində daha 500 mənzil və fərdi evin bu kateqoriyadan olan insanlarımıza təqdim edilməsi planlaşdırılır. Beləliklə, Bakı, Sumqayıt və Abşeron ərazisində dövlət başçısının tapşırığına uyğun olaraq, əsas kontingent olan şəhid ailələrinin və müharibə əlillərinin mənzil təminatı yekunlaşdırılacaqdır. Paralel olaraq regionlarımızda, böyük şəhərlərimizdə də bu iş davam etdirilir. Əlavə olaraq cari ilin birinci yarısında 100 avtomobil də müharibə əlillərinə təqdim edilib. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Əlbəttə ki, bu kateqoriyadan olan insanların məşğulluğu da önəmli məsələlərdəndir. Postmüharibə dövründə 8 min ailədə kiçik ailə təsərrüfatının qurulması onların daimi gəlir mənbəyinin yaradılması imkanıdır. Burada əsas mənbə İşsizlikdən Sığorta Fondu, yəni, dövlət vəsaitləri olub. Paralel olaraq, Dünya Bankı ilə layihə də icra edilir. İşədüzəldilmə proqramı üzrə 5400 müharibə əlili və veteranı münasib işlə təmin olunub. Özəl sektordan 600-dən çox şirkət 2500-dən çox müharibə əlilini işlə təmin edib. Bu proses davam edir.

On bir min müharibə əlili və müharibə veteranı sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb olunub ki, onlara 21 min reabilitasiya vasitəsi təqdim edilib. Qeyd etdiyiniz kimi, artıq 200 nəfər Vətən müharibəsi əlili ən yüksək texnologiyalı dördüncü nəsil müasir protezlərlə təchiz olunub. Cənab İlham Əliyev bildirib ki, dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər: "Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır". Qarabağ müharibəsi əlillərindən 130 nəfər də bu protezlərlə təmin edilib. Yəni, son bir il yarımda bu protezlərlə təchiz edilən hərbçilərimizin sayı 330-a çatıb. Vətən müharibəsi əlillərindən protezləşməyən cəmi iki nəfər qalıb.





## QARABAĞ MÜHARİBƏSİNİN AĞIR NƏTİCƏLƏRİ İLƏ ÜZLƏŞƏNLƏRƏ HƏSSAS MÜNASİBƏT PRİNSİPİ QORUNUB SAXLANILIR

Bu bir daha göstərir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Dövlətimiz həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərmək prinsipini qoruyub saxlayır.

Əlbəttə ki, dövlət başçısının bu kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi məmnunluq yaradır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Əkinçi”dən

## başlanan çətin və şərəfli yol

İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 147 yaşı tamam olur. Bu, əslində, tək mətbuatın deyil, bütövlükdə Azərbaycan cəmiyyətinin bayramıdır. Və təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev mətbuatımızın yubileyinin ümummilli səviyyədə qeyd olunması ilə bağlı imzaladığı sərəncamlar bir daha Azərbaycanda mətbuata dövlət qayğısının daha bir parlaq təzahürü kimi dəyərləndirilməlidir.Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması, əslində, ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən, maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır. 1832-ci ildə ”Tiflis əxbarı” qəzeti və 1845-ci ildə ”Zaqafqazski vestnik” qəzetinə ”Qafqazın bu tərəfinin əxbarı” adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdu. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər, sözün əsl mənasında, hələ qəzet adlandırıla bilməzdi.

### ”ƏKİNÇİ”DƏN BAŞLANAN AZƏRBAYCAN MİLLİ MƏTBUATININ KEÇDİYİ TARİXİ YOL

Milli mətbuatımızın bünövrəsi 1875-ci il, iyulun 22-də ”Əkinçi” qəzetinin ilk sayının nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Dövrünün görkəmli ədibləri olan bu şəxsiyyətlər ”Əkinçi” qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstəriblər. 1877-ci ildə ”Əkinçi” qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərildiyinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmayıb. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən ”Bakinski listok” olub.

1876-cı ildə ikinci rusdilli qəzet ”Bakinskiye izvestiya” nəşrə başlayıb. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş ”Kaspi”nin 1897-ci ildən etibarən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdu. Rusdilli qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də, buna nail ola bilməyiblər. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə ”Ziyayi-Qafqaziyyə” qəzetini çıxarmağa nail olub. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə çapını dayandırıb. 1883-1891-ci illərdə Tiflisdə ”Əkinçi” üslubunu davam etdirən ”Kəşkül” qəzeti və jurnalı çıxarıb. XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi ”Şərqi-rus” qəzeti olub. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, Ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. ”Şərqi-rus” qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Artıq ”Şərqi-rus” qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il, aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - ”Molla Nəsrəddin” işıq üzü gördü. ”Molla Nəsrəddin” jurnalı 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib, 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxıb.

### AZƏRBAYCAN MƏTBUATININ FORMALAŞMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ƏVƏZSİZ XİDMƏTLƏRİ



Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Bəli, ulu öndər hələ dövlət təhlükəsizliyi orqanlarında çalışdığı illərdə, xüsusən də, Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi olarkən, mətbuatla sıx təmas onun iş prinsipinin başlıca istiqamətlərindən biri olub. Bu, ondan irəli gəlirdi ki, Heydər Əliyev hər zaman çox güclü təbliğat və təşviqat maşını olan mətbuatın insanları səfərbər etmək, onları təşkilatlandırmaq imkanlarını çox gözəl bilirdi: ”Mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri həmişə sevmişəm”. Dahi şəxsiyyət Heydər Əliyev sovet dövründə olduğu kimi, müstəqil Azərbaycan dövlətinin Prezidenti olduğu illərdə də mətbuatımızın inkişafı naminə çox böyük işlər görüb.

### PREZİDENT İLHAM ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA MƏTBUATA DÖVLƏT QAYĞISI

Ulu Öndər Heydər Əliyev idarəçilik məktəbinin və siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanda mətbuata dövlət qayğısının miqyası daha da genişlənib. İndi Azərbaycanda istənilən şəxs özünə mətbuat orqanı yarada bilər. Bunun üçün yetərincə əlverişli mühit olduğundan, qəzet və jurnalların sayı durmadan artır. Bu gün Azərbaycanda hər kəsin imkanı var ki, onu düşündürən, narahat edən məsələlər barədə mülahizələrini mətbuata çıxarsın.Prezident İlham Əliyevin 2003-cü ildə Azərbaycan jurnalistlərinin birinci qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurası yarandı. 31 iyul, 2008-ci il tarixli Sərəncamı ilə ”Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası” kimi mühüm bir sənəd təsdiq olundu. Konsepsiyaya uyğun olaraq, 22 may, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Həmçinin, Azərbaycan Respublikasının Prezidentinin Sərancamı ilə ”Əkinçi” qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli mətbuat və jurnalistika günü kimi qeyd olunur. Söz və məlumat azadlığının təmin olunması sahəsində aparılan siyasətin nəticəsində bu gün Azərbaycan Respublikası kütləvi informasiya vasitələrinin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkəmizdə 4200-dən artıq mətbuat orqanı Ədliyyə Nazirliyində qeydiyyata götürülmüş, 50-dən artıq informasiya agentliyi müvafiq dövlət orqanında qeydiyyatdan keçmişdir. Respublikamızda 36 gündəlik, 100-ə yaxın həftəlik və 8-dən artıq aylıq qəzet nəşr olunur. Prezident İlham Əliyevin 2005-ci ildə Azərbaycan milli mətbuatının 130, 2010-cu ildə 135, 2020-ci ildə isə 145 illik yubileylərinin keçirilməsi ilə bağlı müvafiq sərəncamlar imzalaması, yubiley münasibətilə mətbuat işçilərini təltif etməsi, onlara fəxri adlar verməsi respublikamızda jurnalistlərin stimullaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlərdəndir. Bütün bunlar jurnalistika tariximizə, milli-mənəvi dəyərlərimizə, kütləvi informasiya vasitələrimizə verilən yüksək dəyərin göstəricisidir.

### AZAD MƏTBUATIN İNKİŞAFI DÖVLƏT SİYASƏTİNDƏ PRİORİTETDİR

Bu gün Azərbaycan mətbuatı tamamilə yeni bir mərhələdə inkişaf edir. Ölkənin əksər media qurumları Azərbaycan dövləti tərəfindən dəstək görür və müstəqil şəkildə inkişaf edərək milli və ictimai maraqlara xidmət edir. Azərbaycan mediası, xüsusən də bir sıra xəbər portalları dünyada tanınır. Ölkəmizdə bir neçə xarici dildə fəaliyyət göstərən media qurumları var ki, onlara artıq beynəlxalq aləmdə istinad olunur. Milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir. Ulu öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev hər beş ildən bir milli mətbuatımızın yubileyinin təntənə ilə keçirilməsini ənənəyə çevirib. Dövlətimizin başçısı milli mətbuatın yubileyi ilə bağlı ilk Sərəncamı 2005-ci il iyunun 20-də imzaladı, mətbuatımızın 130 illik yubileyi bütün ölkə miqyasında qeyd olundu, çoxlu sayda KİV əməkdaşı orden və medallarla təltif edildi, fəxri adlara, Prezident təqaüdünə layiq görüldü.Milli mətbuatımızın 135 illiyi də böyük təntənə ilə qeyd edilib. Bu dəfə də mətbuat nümayəndələri fəxri adlara və mükafatlara layiq görülüblər, kütləvi informasiya vasitələrinə maddi yardım ayrılıb. Mətbuat Şurası üçün yeni binanın ayrılması, onun müasir avadanlıqla təmin edilməsi, Prezident İlham Əliyevin binanın açılışında iştirakı, jurnalistlər qarşısında çıxışı bir daha bu həqiqəti təsdiq etdi ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir. Prezident İlham Əliyevin Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında Sərəncamı isə jurnalistlərə yeni əhval-ruhiyyə gətirdi, böyük rəğbətlə qarşılandı. Mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsaitin ayrılması mətbuat tariximizdə mühüm hadisə kimi dəyərləndirildi. Təsadüfi deyil ki, 2010-cu il dekabrın 1-dən 20-dək ”RUH” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 2010-cu ildə ”Jurnalistlərin dostu” mükafatı qalibinin müəyyənləşdirilməsi ilə bağlı KİV və jurnalist təşkilatları arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə ”Jurnalistlərin dostu” mükafatına layiq görülüb. Dövlət başçısının Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında jurnalistlər üçün 3-cü yaşayış binası tikilir.

### ÖLKƏNİN İCTİMAİ-SİYASİ HADİSƏLƏRİNDƏ 4-CÜ HAKİMİYYƏT FUNKSİYASINI AKTUALLAŞMASI

Məlumdur ki, 2020-ci il dünyada olduğu kimi Azərbaycanda da mürəkkəb, ağır hadisələrlə yadda qaldı. Ötən ilin fevral ayından etibarən dünyada yayılan COVID-19 pandemiyası Azərbaycan dövləti, səhiyyəsi ilə yanaşı, mətbuatımızın qarşısına da mühüm vəzifələr qoydu. Koronavirus pandemiyası dünyada mətbuatın necə güclü vasitə olduğunu bir daha gündəmə gətirdi, 4-cü hakimiyyət funksiyasını aktuallaşdırdı. Azərbaycan mətbuatı da pandemiya dövründə üzərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirərək ölkə ictimaiyyətini fasiləsiz məlumatlandırmaqda davam etdi. Mütəmadi olaraq koronavirusla bağlı ictimaiyyətin suallarının cavablandırılmasında, məlumatların çatdırılmasında jurnalistlərin xüsusi mövqeyi və əziyyəti danılmazdır. Ölkədə xüsusi karantin rejiminin elan edildiyi, təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırıldığı və digər məhdudiyyətlərin tətbiq olunduğu dövrdə həm televiziya kanalları, həm qəzetlər, həm də xəbər portalları öz fəaliyyətini əvvəlkindən də operativ formada davam etdirdi.Jurnalistlərimiz cəmiyyətin öndə gedən peşə sahibləri kimi, fasiləsiz şəkildə ictimaiyyətin xidmətində dayandılar. Pandemiya dövründə sözün həqiqi mənasında fədakarlıq göstərən peşəkar media nümayəndələri öz operativliyini qoruyaraq həm COVID-19, həm də dünya və ölkə gündəmində olan digər mövzularda cəmiyyəti məlumatlandırdılar. İlk günlərdən etibarən koronavirusun qarşısının alınması üsulları haqqında mətbuatda mütəmadi çıxışlar edildi, məlumat xarakterli materiallar dərc olundu.

### II QARABAĞ MÜHARİBƏSİ - AZƏRBAYCAN MƏTBUATI ÜÇÜN NÖVBƏTİ SINAQ

2020-ci il sentyabrın 27-də təcavüzkar erməni ordusunun Azərbaycanı müxtəlif mövqelərdən atəşə tutması ilə başlayan II Qarabağ müharibəsi isə Azərbaycan mətbuatı üçün növbəti sınaq oldu. 44 gün ərzində Azərbaycan jurnalisti həm ön, həm də arxa cəbhədə yorulmadan çalışdı. Müharibə zonasından canlı bağlantılar, Azərbaycan Ordusunun hər gün artan uğurlarına dair ən son xəbərlər operativ şəkildə ölkə və dünya ictimaiyyətinə çatdırıldı. Media müharibə günlərində xüsusi aktivlik nümayiş etdirərək əsl vətənpərvərlik mövqeyini ortaya qoydu. Jurnalistlər çevik kommunikasiya vasitələrini, müasir tendensiyaları fəaliyyətlərində bacarıqla tətbiq etdilər. Bu dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması mətbuatın bir nömrəli vəzifəsinə çevrildi.2021-ci il iyunun 4-də Azərbaycanın 2 jurnalistinin - Məhərrəm İbrahimov və Sirac Abışovun xidməti vəzifələrini yerinə yetirməyə gedərkən Kəlbəcərdə minaya düşərək həlak olması Azərbaycan mətbuatına ağır itki olsa da, bu hadisə və həmin jurnalistlərin keçdiyi həyat yolu Azərbaycan jurnalistinin cəsarətini, qorxmazlığını və vətənpərvərliyini bütün dünyaya bir daha sübut etdi.

### MEDİADA İSLAHATLAR: YENİ MƏRHƏLƏ BAŞLAYIR

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyi ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, mütərəqqi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Əlbəttə, digər sahələrdə olduğu kimi mediada da geniş islahatlara başlanacağı gözlənilən idi. KİV orqanlarında keyfiyyət dəyişikliyinə ciddi şəkildə ehtiyac yaranmışdı. Bu istiqamətdə yeniliklərin tətbiqi zəruri hesab olunurdu. Fərmanda qeyd edildiyi kimi, ötən əsrin 90-cı illərində Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yaranıb. Ölkə başçısının fərmanı medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasında böyük rol oynayır.

Bir sözlə, yeni qanun media işçiləri üçün yeni imkanlar açır. Və Bu gün müstəqil Azərbaycan dövləti hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır. Azərbaycan mediası bu inkişafın ön sıralarında qərar tutmaqdadır.Bütün bunlar göstərir ki, Azərbaycan dövləti milli mətbuatımıza daim diqqət göstərir və onun inkişafına yönələn tədbirlər həyata keçirilir.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Azərbaycan və Aİ arasında əməkdaşlıq yüksək səviyyədədir"

**"Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər ölkəmizin əldə etdiyi müstəqillikdən sonra inkişaf etməyə başlamışdır. Bu gün tərəflər arasında bərabərhüquqlu tərəfdaşlıq əsasında qurulmuş münasibətlər xarici siyasətimizin prioritet istiqamətlərindəndir. Əlaqələrimizin inkişafını, davamlılığını təmin edən isə 2018-ci ildə paraflanmış "Aİ-Azərbaycan Tərəfdaşlıq Prioritetləri" adlı sənəddir. Və sənəddə göstərilir ki, bir-birinin ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi və ölkələrin beynəlxalq sərhədlərinin toxunulmazlığı öhdəlik olaraq götürülüb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.**

Deputat bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin imzalanması ilə bağlı tərəflər arasında danışıqlar davam edir: "Rəqəmlərə diqqət etsək, Azərbaycanın ən böyük ticarət tərəfdaşları arasında Avropa İttifaqının xüsusi yeri var. Avropa ölkələri ilə aparılan iqtisadi əlaqələrin həcmi Azərbaycanın ümumi ixracının 40 faizini təşkil edir. Siyasi məsələlərə gəlincə Avropa İttifaqının Ermənistan-Azərbaycan danışıqlarında yeni format olaraq ortaya qoyduğu işlər təqdirəlayiqdir. Bilirsiniz ki, ATƏT-in Minsk qrupu 28 il heç bir faydalı işlə məşğul ola, münaqişənin həlli ilə bağlı addımlar ata bilmədi. Haqlı olaraq Cənab Prezident İlham Əliyev də Minsk qrupunun tarixin arxivinə atıldığını qeyd edir və bütün görüşlərdə də bunu açıq şəkildə bildirir. Avropa İttifaqının münaqişənin həlli, iki ölkə arasında danışıqların məhsuldar aparılması üçün atdığı addımlar öz nəticələrini verməkdədir. Aİ Şurasının Prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylər həyata keçirir. Onun iştirakı ilə Azərbaycan və Ermənistan liderləri 2021-ci ilin dekabr, 2022-ci ilin aprel və may aylarında 3 dəfə Brüsseldə görüşüblər".



A.Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında imzalanan memoranduma diqqət çəkərək bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" enerji sahəsində əməkdaşlığı artıracaq: "Qeyd edildiyi kimi sabah Brüsseldə Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının iclası baş tutacaq və burada ikitərəfli münasibətlərin inkişafı müzakirə olunacaq. Məqsəd odur ki, mövcud olan güclü əməkdaşlıq daha da möhkəmlənsin. Azərbaycanın ən böyük ticarət tərəfdaşı olan Avropa İttifaqı ölkəmizə ən çox investisiya qoyan aktor kimi əlaqələri genişləndirsin. İqtisadiyyat və İnvestisiya Planı çərçivəsində 2 milyard avro Azərbaycana cəlb olunur. 25 min azərbaycanlı kiçik və orta sahibkara dəstək, Bakı Limanının dayanıqlı haba çevrilməsi istiqamətində işlər görülür ki, bu Avropa üçün vacibdir. Aİ Mərkəzi Asiya və onun hüdudlarından kənarda əlaqələr qurmaq üçün Azərbaycanla işləmək istəyir. Ona görə də Trans-Xəzər əlaqələnməsi ilə bağlı müzakirələr aparılır. Eyni zamanda, Avropa ortaq Aviasiya sahəsi ilə bağlı sazişi tamamlamaq istəyir. Bu da turizm, biznes və ticarətə təkan verəcək. Azərbaycanın öz potensialından tam istifadəsi üçün onun etimad mühiti yaratması vacibdir ki, burada da vətəndaş cəmiyyətinin fəal iştirakı, azad və müstəqil medianın təminatı əsas elementlərdir. Aİ inkişaf edən və stabil Cənubi Qafqazın yaradılmasına sadiqdir. Bu barədə çıxışında xanım Ursula Fon der Lyayen ətraflı danışıb. İnanırıq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq davamlı şəkildə dərinləşəcək və inkişaf edəcək".

# "Azərbaycanın müstəqil siyasəti ədalətli mövqeyini möhkəmləndirir"

"Dövlət başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə ölkəmizin hər hansı konkret dövr ərzində ayrı-ayrı sahələr üzrə əldə etdiyi uğurların və onların əsasında müəyyənləşdirilən perspektivlərin təqdimatıdır. Bu baxımdan iyulun 15-də ölkə Prezidentinin sədrliyi ilə keçirilmiş cari ilin altı ayının yekunlarına həsr olunan müşavirədə cənab İlham Əliyevin proqram xarakterli nitqi qarşıda dayanan vəzifələrin təqdimatı baxımından olduqca diqqətçəkəndir. Dövlət başçısı İlham Əliyev Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlardan geniş bəhs edərək diqqəti bu məqama yönəltdi ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dayanıqlı inkişafına geniş imkanlar açır. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri bunu bir daha təsdiq edir. Ötən 6 ayda iqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye istehsalı 11,5 faiz artıb, əhalinin gəlirləri təxminən 20 faiz artıb. İxrac 2 dəfədən çox, qeyri-neft ixracı 25 faizdən çox artıb. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ordu quruculuğu, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərinin miqyasını da nəzərə alsaq Azərbaycanın iqtisadi və maliyyə imkanlarının hansı səviyyədə olduğunu böyük əminliklə qeyd edə bilərik. Çünki ölkəmiz işğaldan azad edilmiş ərazilərimizdə bütün işləri öz daxili imkanları hesabına həyata keçirir". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.



Vüqar Rəhimzadə qeyd edib ki, tarixi Zəfərimizdən sonra Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin daha da möhkəmlənməsi cari ilin 6 ayında xarici siyasət sahəsində qazanılan uğurlardan aydın görünür: "Azərbaycanın ayrı-ayrı ölkələrlə ikitərəfli və beynəlxalq təşkilatlar daxilində əlaqələri yüksələn xətlə inkişaf edir. "Azərbaycan öz sözünə sadiqdir" söyləyən dövlət başçısı İlham Əliyev bildirir ki, beynəlxalq arenada oynadığımız rol, göstərdiyimiz həmrəylik və ehtiyac içərisində olan ölkələr üçün maliyyə dəstəyi, xüsusilə COVID-19-la bağlı 80-dən çox ölkəyə edilən humanitar yardım nüfuzumuzu daha da artırmışdır. Bunu aydın görmək üçün Azərbaycanın koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə başlandığı gündən həm daxildə, həm də beynəlxalq səviyyədə həyata keçirdiyi tədbirlərin miqyasına diqqət yetirmək kifayətdir. Öncə türk dünyasının birliyinə nail olmaq üçün dövlət başçısı İlham Əliyev Türk Şurasının Zirvə Görüşünün keçirilməsinə nail oldu. Sonra bütün dünya dövlətlərini bir araya gətirmək üçün Qoşulmama Hərəkatının Zirvə Görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Həmçinin quruma üzv dövlətlərin birgə səyləri əsasında Azərbaycanın BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü dəstəkləndi. 2020-ci ilin dekabrında bu məsələ ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Xüsusi Sessiyası keçirildi. Göründüyü kimi, Azərbaycan bu kimi təşəbbüsləri ilə dünyanın bir-birinə əks olan qütblərini bir araya gətirərək, onları beynəlxalq səviyyədə narahatlıq doğuran məsələlərin həllində birgə fəaliyyət göstərməyin zəruriliyinə inandırmağı bacarır."

Vüqar Rəhimzadə vurğulayıb ki, dövlət başçısı İlham Əliyev Azərbaycanın xarici siyasət uğurlarından bəhs edərkən diqqəti, eyni zamanda, Amerika-Azərbaycan əlaqələrinin hazırkı inkişaf səviyyəsinə yönəltdi: "Amerika Birləşmiş Ştatlarının Prezidenti dövlət başçısı İlham Əliyevə istər Müstəqillik Günü, istərsə də Enerji Həftəsinin açılışı münasibətilə təbrik məktublarında bildirmişdir ki, hər iki ölkə münasibətləri müxtəlif istiqamətlər üzrə inkişaf etdirmək imkanlarına malikdir. Azərbaycanın cari ilin altı ayında dünyanın güc mərkəzləri, həmçinin beynəlxalq təşkilatlarla münasibətlərinə diqqət yetirdikdə böyük uğurların əldə olunduğunu əminliklə qeyd edə bilərik. Azərbaycan -Avropa İttifaqı əməkdaşlığı da yüksələn xətlə inkişaf edir. Nəzərə alaq ki, Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına öz dəstəyini göstərməyə hazır olduğunu bildirir, eyni zamanda, iki ölkə arasında münasibətlərin normallaşması üçün səylərini artırır. Azərbaycanla Avropa İttifaqı arasında enerji sektorunda da əməkdaşlıq yüksək səviyyədədir. Daim çıxışlarında "Biz nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik" söyləyən dövlət başçısı İlham Əliyev Azərbaycanın enerji sektorunda qazandığı uğurları xüsusi olaraq diqqətə çatdırır. Əgər yaxın tarixə nəzər salsaq görərik ki, 2011-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Cənub Qaz Dəhlizi haqqında" Birgə Bəyannamə gələcək əlaqələrin inkişafında başlanğıc kimi dəyərləndirildi. Birgə Bəyannamədə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında rolu yüksək qiymətləndirilərək əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcudluğu bildirilmişdir. Dövlət başçısı, eyni zamanda, bu əminliyi ifadə etmişdir ki, imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcək. 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması və layihənin nəzərdə tutulduğu vaxtda, 2018-ci ildə rəsmi açılışı, 2020-ci ilin sonunda tam şəkildə istifadəyə verilməsi Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunun göstəricisidir. Azərbaycanın müstəqil siyasəti uğurlarının davamlılığında, ədalətli mövqeyinin möhkəmlənməsində mühüm rol oynayır. Ölkə Prezidentinin "Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik" sözləri də deyilənlərin təsdiqidir."

YAP Xətai rayon təşkilatının sədri son iki ilə yaxın dövrün əsas diqqətdə olan məsələlərindən biri kimi Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində atılan addımlara da diqqəti yönəldib: "Dövlət başçısı İlham Əliyev bir daha bu reallığı diqqətə çatdırdı ki, Vətən müharibəsindən 1 il 8 ay ötməsinə baxmayaraq Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir. Müsbət hal ondan ibarətdir ki, yenə də Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipi Ermənistan tərəfindən qəbul edilib. Ölkə Prezidentinin də qeyd etdiyi kimi, təkliflərimizin qəbul edilməsi müsbət hal olsa da, hələ ki, konkret addımlar yoxdur. Ermənistanın 10 noyabr 2020-ci ildə imzalanmış Bəyanatda təsbit edilən məsələlərdən boyun qaçırmasını təsdiqləyən xeyli sayda fakt sadalaya bilərik. Həmçinin son vaxtlar Ermənistan rəhbərliyi yenə də hansısa status haqqında danışmağa başlayıb. Azərbaycan Prezidenti 44 günlük İkinci Qarabağ müharibəsi dövründə xarici mətbuata müsahibələrində, həmçinin xalqa müraciətlərində statusun hara getdiyini bəyan edib. Ermənistanın bu məsələni yenidən gündəmə gətirməsi birmənalı qarşılana bilməz. Bu, işğalçı dövlətin özü üçün çox təhlükəli məsələdir. Dövlət başçısı bu təhlükəni belə əsaslandırır ki, biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı."

Vüqar Rəhimzadə dövlət başçısı İlham Əliyevin müşavirədəki giriş və yekun nitqlərində yer alan məsələlərin ümumiləşdirilmiş ifadəsi olaraq bildirib ki, ölkə Prezidentinin düşünülmüş və məqsədyönlü, ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasəti ölkəmizin hər bir məsələnin milli maraqlarımıza uyğun şəkildə çözülməsini təmin edir: "Azərbaycan dövləti hər zaman bəyan edir ki, 28 il heç bir nəticə hasil etməyən ATƏT-in Minsk qrupuna ehtiyac yoxdur. Bu fikrin həqiqiliyini əsaslandırmaq üçün Minsk qrupunun həmsədr dövlətləri arasında münasibətlərin hazırkı səviyyəsinə diqqət yetirmək kifayətdir. Bir-birinə qarşı etimadsızlıq mühitinin hökm sürdüyü quruma üzv dövlətlərdən artıq tarixin arxivinə göndərilmiş Qarabağ münaqişəsi ilə bağlı hər hansı konstruktiv təklif gözləmək ən yumşaq formada ifadə etməli olsaq sadəlövhlük olardı. Artıq çözülmüş məsələnin hansı həllindən söhbət gedir ki, ATƏT-in Minsk qrupuna ehtiyac olsun? Bütün bunlar bir daha açıq-aydın göstərir ki, Ermənistan sülh müqaviləsi ilə bağlı konkret addımlar atmalıdır."

# Pandemiya davam edir:

## virusun yeni mutasiyaları aşkarlanır




**Dünya miqyasında, eləcə də ölkəmizdə son iki ildən artıq bir zamanda koronavirus pandemiyası ilə birgə yaşadıqlarımız bu virusun nə qədər təhlükəli olduğunu bir daha ortaya qoydu. Qısa müddətdə dünyamızı bürüyən, milyonlarla insanın ağır virusa yoluxmasına, insanın acı ölümünə səbəb olan COVİD-19 pandemiyasının nəticələri ölkələrin ağır iqtisadi, sosial böhranlarla üzləşməsinə səbəb oldu. Bu bəladan dünyanın bütün dövlətləri həm maddi, həm də, mənəvi böyük xəsarətlər aldılar və bu gün də davam etməkdədir. Dünyanın iqtisadi, siyasi və hərbi gücünə görə seçilən dövlətlərin belə bu virusun qarşısında gücsüz olduqları məlum oldu. Ölkəmizin pandemiya ilə mübarizədə nəticələri isə deməyə əsas verir ki, Azərbaycan xalqı, dövləti birlik nümayiş etdirərək, fədakarlıqla anlayış, hörmət, güvən, sevgi çərçivəsində çox mükəmməl və peşəkarlıqla vəziyyəti idarə edə bilir.**

Çindən başlanan virus infeksiyası sanki işıq süratı ilə tez bir zamanda dünya ölkələrinə yayıldı və insanların gizli düşməninə çevrildi. Virusun təhlükəli olduğunu nəzərə alan dövlətimiz tərəfindən tez bir zamanda COVID 19-la mübarizə məqsədi ilə tədbirlər görüldü. Yoluxma halının qarşısının alınması məqsədi ilə görülən işlər, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi, qapanmalar və bu kimi qərarların qəbul edilməsi virusun yayılmasının qarşısının alınmasına qarşı istiqamətləndi. Qısa zamanda modul xəstəxanaların istifadəyə verilməsi, "Yeni klinika"nın açılışı və s. dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər görülən işlər sırasındadır. Bəşəriyyətin bəlasına çevrilmiş pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələr arasında Azərbaycanın adının yer alması həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir.

### AZƏRBAYCAN DÜNYA DÖVLƏTLƏRİNİ ORTAQ DÜŞMƏNLƏ MÜBARİZƏDƏ VAHİDLİK, BİRLİK NÜMAYİŞ ETDİRMƏYƏ ÇAĞIRDI

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan öz daxilində pandemiyaya qarşı öz iradəsini qoymaqla yanaşı, ilk dövrdən öz humanitar təşəbbüsləri ilə seçilən dövlətlərdən birinə çevrildi. Bu istiqamətdə Azərbaycanın beynəlxalq əməkdaşlığın pozitiv nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar dəyərində könüllü ianələr ayırdı. Azərbaycanın belə böhranlı şəraitdə yardım alan dövlət deyil, məhz yardım edən dövlət rolunu oynaması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən vaxtında və məntiqi ardıcıllıqla verilən qərarların önəmini əsaslı şəkildə sübut etmiş oldu.

Pandemiyanın ilk günlərindən ölkə rəhbəri Cənab İlham Əliyevin çevik qərarları və tapşırıqları ilə bu bəlanın ilkin mərhələsindən müsbət nəticələr əldə etdik. Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın "İnanıram və ümid edirəm ki, ümumi səylərimiz mütləq nəticə verəcək. Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır", - fikirləri bir daha xalqı həmrəyliyə səslədi.

Azərbaycan COVİD-19-la mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayan dövlətlərdən biri kimi müxtəlif platformalar vasitəsilə dövlətləri bu birliyə səslədi. Dövlət başçısı beynəlxalq miqyasda pandemiya ilə mübarizədə çoxsaylı ikili videokonfrans formatında görüşlər keçirdi, dünya dövlətlərini ortaq düşmənlə mübarizədə vahidlik, birlik nümayiş etdirməyə çağırdı. Türk Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının videokonfrans vasitəsilə Zirvə görüşü və görüşdə Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etməsi əhəmiyyət daşıyır. Azərbaycan hər zaman dünyanı sülhə, ədalətə çağırdığı kimi, bu məsələdə də mövqeyini ortaya qoymuşdur. Bildiyimiz kimi, peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək, BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürdü. "Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir", - deyən dövlət başçısı İlham Əliyev bildirmişdi ki, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Ötən ilin noyabrın 18-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edildi. Qətnaməyə 126 BMT üzvü dövləti həmmüəllif qismində qoşulmuşdu. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca amillərdən olduğu vurğulanırdı. Sözügedən qətnamənin qəbulu Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səylərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisidir. Əlbəttə ki, dinindən, irqindən asılı olmayaraq bütün bəşər övladına münasibət eyni olmalıdır. İnsanların kasıb, yaxud varlı ölkələrdə yaşamasından asılı olmayaraq, insan amilinə diqqət ayrılmalı və bütün bəşər övladı bu bəladan qısa bir zamanda xilas olmalıdır. Bu yol vaksinasiya olunmaqdan keçir.

### AZƏRBAYCAN DÜNYA ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏDƏ AZ İTKİ VERDİ

Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirməsi də təbii ki, ölkəmizdə reallaşan tədbirlərin təzahürüdür. Əlbəttə ki, bu gün də ölkəmizdə vəziyyət daim nəzarətdədir. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanda "COVID-19"-la mübarizə istiqamətində görülən tədbirlər sırasında əhalinin vaksinasiyası da uğurla reallaşır. Azalma sayı müşahidə olunduğu zamanda belə insanlar yeni növ koronavirus infeksiyası əleyhinə vaksinasiya olunurdu və bu gün də belədir. Bu günə qədər Azərbaycanda yeni növ koronavirus - COVID-19 infeksiyasına yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə aparılan testlərin sayı 7 milyonu ötüb. Belə ki, indiyədək aparılan testlərin sayı 7 milyon 2 min 575-ə bərabərdir. Bu statistik rəqəm onun göstəricisidir ki, hər bir vətəndaş peyvəndlənməyə məsuliyyətlə yanaşır. Vətəndaşların bu bəladan xilas yolu vaksinasiyadır. İndiyədək ölkədə ümumilikdə 794 min 588 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 783 min 998 nəfər müalicə olunaraq sağalıb, 9 min 723 nəfər vəfat edib. Ölüm sayının bu qədər olması əlbəttə ki, acınacaqlıdır. Dünya ölkələri ilə müqayisədə az itki vermiş olsa da, amma yenə də təəssüf doğurur. Vətən müharibəsində Azərbaycan Zəfər qazandı və 3000 (üç min) şəhid verdi. Amma pandemiya dövründə artıq Azərbaycanda 10000 (on min) yaxın insan vəfat edir. Öz həyatını, yaxınlarını təhlükədən xilas etmək üçün hər bir vətəndaş vaksinasiya olunmalıdır. Vaksinasiya başlanılan ilk günlərdə tərəddüd edənlər sonralar artıq bunun nə qədər vacib olduğunu anlamış oldular. Bir daha əvvəlki günlərimizə qayıtmaq üçün məsuliyyətli olmalı, düşmənə qalib gəlməli "Biz birlikdə güclüyük" deməliyik. Bildiyimiz kimi, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir.

### MEYMUNÇİÇƏYİNƏ YOLUXMA DÜNYANIN 60-DAN ARTIQ ÖLKƏSİNDƏ TƏSADÜF EDİB

Yaxın aylarda ölkəmizdə yoluxma halının bir və ya iki rəqəmli arasında olması bizi çox sevindirmişdir. Amma bu gün yenə də üç rəqəmli üzərində dəyişməkdədir. Azərbaycanda artan yoluxma halları, "omikron" ştamından qorunmaq üçün diqqətli olmalıyıq. Koronavirus pandemiyası davam edir və virusun yeni mutasiyaları aşkarlanır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Qebreyesusun bildirdiyinə görə, "Omikron"un BA.4 və BA.5 yüksək dərəcədə yoluxucu alt tiplərinin yayılması ilə əlaqədar olaraq bütün dünyada koronavirusa yoluxma hallarının sayı, həmçinin xəstəxanaya yerləşdirilmə və ölüm halları göstəriciləri artır. Onun sözlərinə görə, bütün dünyada SARS-CoV-2 viruslarının genetik analizi və testlərin sayı kəskin şəkildə azaldığından virusu izləmək əvvəlkindən daha çətin olub. Doktor Tedros xatırladıb ki, vaksinlər milyonlarla insanın həyatını xilas etməyə kömək edib. Onun sözlərinə görə, bu gün hökumətlər bütün risk altında olan insanların əlavə gücləndirici dozalar ala bilməsini təmin etməyə diqqət etməlidirlər. O, həmçinin qızılca və pnevmoniya da daxil olmaqla, əhalinin digər ölümcül xəstəliklərə qarşı peyvənd edilməsinin vacibliyini də qeyd edib.

Azərbaycanda isə hələ meymunçiçəyi aşkarlanmayıb. Buna baxmayaraq, hər bir insan məsuliyyətli olmalı, gigiyena qaydalarına əməl olunmalı, sosial məsafə gözlənilməlidir.

***Zümrüd BAYRAMOVA***

SİYASİ RAKURS+ÖZƏL








# Paşinyan Fransa diasporunun şefi Papazyanı söydü:
# amansız qarşıdurma!

**Baş nazir fransalı diaspor şefini persona non-qrata elan edib və Ermənistana girişinə rəsmi qadağa qoyub**




**Son vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyanın xarici ölkələrdə fəaliyyət göstərən erməni diasporları ilə münasibətlərində kəskin qarşıdurmalar, ziddiyyətlər yaşanmaqdadır. Baş verən bu kimi münaqişələr arasında nəzərəçarpacaq qədər şiddəti ilə Fransa diasporunu və diasporun rəhbəri Frank Papazyanı qeyd etmək olar. Belə ki, uzun illər boyunca Ermənistana ən çox maliyyə vəsaitləri göndərən də məhz erməni diaspor təşkilatları koordinasiya şurası, eləcə də rəhbəri Murad Papazyan olub.**

Artıq münaqişə həddi o dərəcədə inkişaf edib ki, erməni cəmiyyətində parçalanma və qütbləşmə başlayıb - onların





bir hissəsi mövcud Paşinyan iqtidarının, digər hissəsi isə Papazyanın cinahında yer alıblar. Lakin buna baxmayaraq, Ermənistanın sosial şəbəkə, həmçinin ekspert cəmiyyəti, əsasən, Fransa diasporunun tərəfində dayanırlar. Bunun səbəbi isə Paşinyanın bir müddət əvvəl Papazyanı təhqir etməsidir, hansı ki, məhz ultra-daşnakçılığı və revanşistliyi ilə seçilən Papazyan Ermənistana illər uzunu yüz milyonlarla dollar göndərməklə bu yarıölü respublika quruluşunu birtəhər ayaqda saxlamağa çalışıb.

## Koçaryan-Sarqsyan cütlüyü Papazyanı Paşinyana söydürməklə nəyə və niyə təhrik ediblər?

Yeri gəlmişkən, onu da xatırladaq ki, erməni terrorunu açıq şəkildə dəstəkləyən Frank Papazyanın daha çox qarabağlı erməni klanının rəhbərləri - eks-prezidentlər Koçaryan-Sarqsyan cütlüyü ilə kifayət qədər sıx əlaqələri mövcuddur. Məhz sonuncuların təhriki ilə Papazyan Paşinyanla danışığı zamanı erməni hökumətindən hazırkı dövrə qədər göndərilən vəsaitlərin hesabatını tələb edib.

Baş nazir isə ona dəqiq cavab verməyib. Hətta Fransadan hökumət telefonuna zənglər edilərkən, əməkdaşlar Paşinyanın əmrinə əsasən həmin zəngləri cavabsız qoyublar. Belə vəziyyət isə nəticədə ciddi qarşıdurmaya səbəb yaradıb. Hətta belə bir informasiya da var ki, bu iki şəxs daha əvvəl telefonla danışdıqları zaman baş nazir diaspor rəhbərini ən ağır söyüşlərlə təhqir edib və bundan sonra Paşinyan Fransa diasporunun rəhbərliyi ilə əlaqələrinə son qoyub.

## Yaşanan münaqişə həm Ermənistan, həm də Fransa ermənilərini parçalayaraq iki qütbə bölüb

Digər məlumata görə isə, bu münaqişə yalnız Ermənistanda deyil, həmçinin Fransadakı diaspor arasında da parçalanma yaradıb. Məsələ ondadır ki, baş verən situasiyadan yararlanan bir qrup erməni öz təşkilatlanmalarını apararaq ayrıca diaspor yaradıb nümayəndələrini İrəvana göndəriblər. Onların nümayəndələri isə diaspor iş üzrə naziri ilə görüşərək yeni konsepsiyalarını təqdim ediblər. Vəziyyətin çərçivədən çıxaraq belə bir hal alması isə Papazyanı özündən çıxarıb.

Nəticədə erməni diaspor təşkilatları koordinasiya şurasının rəhbəri Murad Papazyan zəngin ermənilərdən ibarət və onunla həmrəy olan olan daşnakçı erməniləri toplayaraq qərar veriblər ki, nə qədər Paşinyan hakimiyyətdədirsə, onlar Ermənistana bir sent də maliyyə yardımları ayırmayacaqlar. Hətta münaqişə Fransada fəaliyyət göstərən onlarla erməni kilsələrinə də öz təsirini göstərib və deyilənlərə görə, erməni kilsələrində də parçalanma və qütbləşmə hallarına start verilib.

## Katolikos I Aram Murad Papazyanın Ermənistana girişinə qadağanın oyulması ilə bağlı verilən qərardan narahat olduğunu bildirib - kilsələrdən Paşinyana qarşı lənətlər yağdırılmağa başlanıb

Üstəlik, Murad Papazyanın həmin qərarının ardınca Nikol Paşinyan təcili olaraq onun Ermənistan respublikasına girişinə rəsmən qadağa qoyub. Bu qərar isə sanki odun üzərinə benzin töküb. Ölkənin müxalifət düşərgəsində və diaspora dairələrində ox yaydan çıxıb. İlk olaraq erməni keşişləri və cəmiyyəti arasında nüfuzu ilə seçilən katolikos I Aram Murad Papazyanın Ermənistana girişinə qadağanın qoyulması ilə bağlı verilən qərardan narahat olduğunu bildirib və tərəfləri sülhə çağırıb. Amma bu da nəticə verməyib və kilsələrdən Paşinyana qarşı lənətlər yağdırılmağa başlanıb.

"Paşinyan üçün iki erməni doasporu mövcuddur - yaxşı və pis". Bu sözləri isə media eksperti Tiqran Koçaryan deyib. Onun sözlərinə görə, ekspert Papazyanın Ermənistana girişinə qadağanın qoyulması-

n ı

və persona nin-qrata elan edilməsini qisas adlandırıb. SİTAT: "Paşinyan inciyib ki, pis diasporda ənənəvi partiyalar və erməni kilsəsi yer alıb. Yaxşı diasporu isə diaspor işləri üzrə ali komissar Zare Sinanyan (Paşinyanın tapşırığı ilə) yaratmağa çalışır".

Münaqişəyə Ermənistanın eks-ombudsmanı, daşnak xislətinə məxsus və demaqogiya ilə məşğul olan Arman Tatoyan da qarışıb. Onun sözlərinə görə, Papazyanın ölkəyə girişinə qadağanın qoyulması erməni cəmiyyətinin parçalanmasına xidmət edir və qəbuledilməzdir.

Lakin bütün qeyd olunanlarla yanaşı, Paşinyanın terrora və qana həvəsi olan tərəflərə qarşı barışmaz savaşa başlaması belə qənaətə gəlməyə zəmin yaradır ki, o təhlükənin artdığını hiss edən kimi onu öz beşiyindəcə boğmaq qərarına gəlib, ona qarşı çıxanları qara siyahıya salıb.

Vaşinqton Paşinyana Moskva və Paris agenturası ilə mübarizəsində davamlı yardımlar göstərəcəyini vəd edib - Qafqazdakı maraqlarını əlində saxlaması üçün...

Beləliklə, növbəti mümkün ehtimallara və oradan doğan proseslərə nəzər salaq. Məsələ ondadır ki, geosiyasi planda Paşinyanla güclü Fransa diasporu arasındakı münaqişənin kökü daha çox dərinə işləyir. Hətta belə desək, artıq burada Vaşinqtonla Parisin də maraqlarının toqquşduğunu deyə bilərik. Məhz bu istiqamətlər Qarabağ münaqişəsi başlayan gündən Cənubi Qafqazın nəbzini öz əllərində saxlamağa və bir addım da geri çəkilməmək üçün cəhdlər göstəriblər.

Görünür, Vaşinqton Paşinyana Moskva və Paris agenturası ilə mübarizəsində davamlı yardımlar göstərəcəyini vəd edib. Əbəs deyil ki, məhz ABŞ Konqresi davamlı şəkildə ermənipərəst, anti-Azərbaycan və anti-Türkiyə xarakterli düzəlişlər təklif edir və paralel olaraq Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) birbaşa rəhbərini İrəvana rəsmi səfərə göndərir. Bu, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, Qafqazı itirməmək üçün ABŞ əlində olan bütün imkanlarından maksimum istifadə etməyə çalışır və Paşinyanın ən böyük erməni diasporu ilə qarşıdurmasında, yəni Fransa ermənilərini ilə münaqişəsində ona dəstək göstərəcəyini əməli qaydada nümayiş etdirir.

*Rövşən RƏSULOV*

# Media? uşaqları necə qoruyur

***Uşaqlar Covid 19 virusundan sonra 1 il onlayn təhsil ilə oxumalı oldular. Xüsusilə yeniyetmələrin həyatında sosiallaşmanın vacib olduğu bir dövrdə bu məhdudiyyət onların psixologiyalarına təsirsiz ötüşmədi. Pandemiyanın hələ bitmədiyi, məhdudiyyətlərin nisbətən aradan qaldırıldığı sonrakı dövrlərdə uşaqların saysız intiharı da bu səbəbdən qaynaqlanırdı.***

İnsanlarla ünsiyyətdə qalmaq, həyata davam etmək üçün onlayn iş, təhsil vacib idi, lakin öz müsibət tərəflərinin ardında mənfi təsirlərini də danmaq olmaz. Uşaqların internetdə zaman keçirmələri üçün müəyyən sərhədlər qoymayan, qoya bilməyən valideynlər üçün virtual təhsil real kabusa döndü.

Mütəxəssislər deyir ki, uşaqlara yumşaq və güvən aşılayan bir ünsiyyət forması ilə yaxınlaşmaq, onları kobud, zorakılıqla dolu ünsiyyət formasından uzaqlaşdırmaq deməkdir. Yəni ona necə yaxınlaşsan, ünsiyyəti necə qursan o da eynisini tətbiq edəcək. Bu həm də valideynin övladını qoruma üsuludur.

## Media uşaqlara pis örnək olur?

Bəs mediada necə, uşaqların qorunması üçün nə işlər aparılır? Kütləvi inforrmasiya vasitələri onların hüququnu qoruya bilirmi?

Zorakılıq, təcavüz, qətl məlumatlarının bol olduğu saytlar baxış sayı, İP toplamaq naminə bir-biri ilə sanki yarışa girib. Saytların ən çox oxunanlar guşəsində istisnasız olaraq bu tip materiallar yer alır. Təəssüf ki, son dövrdə bunu həm də televiziya proqramlarında müşahidə edirik. Sosial yönümlü olduğu iddia edilən televiziya proqramlarında ailə dəyərləri, milli-mənəvi ənənələr nəzərə alınmadan reytinq xətrinə hər addım atılır.

Bəzən deyirlər ki, əvvəllər cəmiyyət bu qədər korlanmamışdı, ölən-öldürən bu qədər çox deyildi. Qismən razılaşmaq olar. Düzdür, əvvəllər pis hadisələr indikindən dəfələrlə az baş verirdi. Lakin internetin həyatımızda bu qədər hegemon olmadığı dövrlərdə baş verən az sayda pis hadisələr belə insanlara gec çatırdı və ya heç nüfuz etmirdi. Lakin indi sosial şəbəkələr, saytlar, canlı yayımlar bu məsələdə xüsusi canfəşanlıq göstərirlər. Kim kimi öldürüb, kim kimi doğrayıb, kim kimə sataşıb, kimin əli kimin boğazındadır- anında xəbər edilir.

Uşaqlarımızın azad internet məkanına çıxışının olduqca rahat olduğunu nəzərə alsaq bu vəziyyətin nə qədər təhlükəli olduğunun da fərqinə vararıq. Uşaqlar bir qətl hadisəsinin necə törədildiyini, izlərin hansı yolla itirildiyini, qatilin gizlənmək üçün hansı üsullardan istifadə etdiyini, habelə ailəli insanların ailə dəyərlərini heçə sayaraq əxlaqsız davranışlarını əks etdirən materialları rahatlıqla oxuya, izləyə bilirlər. Dolayısı ilə uşaqların haqları reytinq, qazanc uğrunda heçə sayılır, zorakılıq aşılanır.

## Uşaqları rəqəmsal tora salırlar

Uşaqların media mühitinə daxil olması halında təhlükəsizliyini təmin etmək vəzifəsi həm medai orqanlarının, həm də dövlətin nəzarətində olmalıdır. Mediada uşaqların yararına atılacaq bütün addımlar onları sözdə deyil, həqiqətən qorumalıdır. Uşaq hüquqları haqqında yazı hazırlayıb manşetdə zorakılıq görmüş uşaqlığın şəklini vermək nə etika, nə də uşaq hüquqları yararınadır.

Uşaqların mediada zorakılığa məruz qalmasının bir vasitəçisi də reklamlardır. Yaşından, cinsindən asılı olmayaraq hər insanın izləyə biləcəyi, əlçatanlığı adi olan reklamlarla uşaqlara qarşı zorakılıq, hədə-qorxu aşılaya bilirlər. Rəqəmsal dünyanın imkanlarından təcrübəsiz formada istifadə edən uşaqlar qeyri-qanuni yollarla qadağan edilmiş proqramlardan istifadə edə, təhlükəli dostluqlar qura, subliminal mesajlara, onlayn uşaq istismarına məruz qala bilər.

## Uşaqlar mətbuata nə vaxt çıxır?

Diqqətli oxucular fərqində olur, uşaqlar adətən mətbuata zorakılıq, təcavüz, qətl və intihar xəbərləri ilə gündəm olur. Soz son illər hansısa uşağın əl işinə, bacarığın, üstün zəkasına, hər hansı bir uğuruna görə gündəm olduğunu görmüsünüzmü? Amma döyülən, təcavüz edilən, zorakılığa məruz qalan uşaqların haqqında mətbuat üzü açıq, adı məlum formada dərhal məlumat yayır. Bu uşaqların yararınadır? Əlbəttə yox. Virtual platformaya əbədi həkk olan fotolar uşaqların bundan sonrakı həyatına təsir edir, gələcəyində problem yaradır.

Rəqəmsal platformalarda uşaqların şəkilləri videoları paylaşılarkən bu paylaşımın hazırda uşaq olan, gələcəkdə yetkin insan olacaq fərdin həyatına təsir ehtimalları da nəzərə alınmalıdır. İndi bizə xoş gələn, uşaq məsumluğu ilə qəzəbi, kədəri əks etdirən, yaxud gülməli hesab etdiyimiz bu görüntülər gələcək həyatlarında onların həyatını korlaya, problem yarada bilər. Bu sadəcə öz uşağımıza adi deyil, həm fərd olaraq, həm də media başqasının övladının şəklini paylaşarkən, yayımlayarkən icazə almalıdır.

Lakin cəmiyyətin böyük hissəsinin məlumat qaynağı olan media öz öhdəliyini yerinə yetermək əvəzinə ucuz şou ilə məşğul olur. Döyülən, təcavüz edilən uşaqların fotosunu bir günlük oxuma sayı üçün öz maraqlarına qurban edirlər.

Jurnalistlərin bu məsələdə diqqətsizliyi isə təcrübə azlığı və peşə etikasından xəbərsiz olması ilə əlaqədardır. Uşaqların inkişafı, rəqəmsal dünyada təhlükəsizliyi üçün yazılan hər kəlmə diqqətli seçilməli, oxucu kütləsi arasında uşaqların da olacağı nəzərə alınmalıdır. Buna görə media nümayəndələri uşaqlarla bağlı təlimlərə cəlb edilməli, BMT-nın Uşaq Haqları Konvensiyasının tələbinə uyğun bütün şərtlərə əməl edilməsi üçün media orqanları qarşısında ciddi tələblər qoyulmalıdır.

**Lalə Mehralı**

ARAŞDIRMA









Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



# Almanlar bu futbolçu üçün "Yuventus"a 70 milyon avro ödəyəcək!

İtaliyanın "Yuventus" futbol klubunun forvardı Matteys de Liqt Almaniyanın "Bavariya"klubuna keçməyə yaxındır. Qol.az Almaniya mətbuatına istinadən xəbər verir ki, klublar bu transferlə bağlı razılığa gəliblər. Razılığa əsasən, Münhen təmsilçisi 70 milyon avro təzminat ödəyəcək. Klub əlavə 10 milyon avro bonus da ödəyə bilər. Qeyd edək ki, niderlandlı müdafiəçinin yeni klubu ilə 5 illik müqavilə imzalayacağı gözlənilir.

# 5 nəfər dənizdə batıb

**Ötən sutka dənizdə qeyri-çimərlik ərazilərdə batan 5 nəfərin meyiti çıxarılıb. Fövqəladə Hallar Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirliyin "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 91 yanğına çıxış və 12 halda köməksiz vəziyyətdə qalma faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.**

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən ötən sutka ərzində 17 nəfər, o cümlədən dənizdə çimərkən batma təhlükəsi ilə üzləşən 8 nəfər xilas edilib. Həmçinin, Nərimanov rayonunda 1955-ci il təvəllüdlü Atayev Elman Hilal oğlunun meyiti bağlı qapı arxasında aşkar olunaq təhvil verilib. Bundan başqa, dənizdə qeyri-çimərlik ərazilərdə batan 5 nəfərin meyiti çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.



# Yol qəzalarında 6 nəfər ölüb

Həftəsonu, iyulun 16-da və 17-də yol qəzalarında 6 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, avtomobil yollarında ölümlə nəticələnən 6 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 6 nəfər ölüb, 5 nəfər isə xəsarət alıb.



# Klublarımızın avrokuboklardakı potensial rəqibləri bəlli oldu

Dünən futbol üzrə UEFA Çempionlar Liqasında və Konfrans Liqasında 3-cü təsnifat mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən mərasimdə Azərbaycan təmsilçiləri - "Neftçi", "Zirə", "Qəbələ"nin də potensial rəqibləri müəyyənləşib. Çempionlar Liqasının ikinci təsnifat mərhələsinin "Qarabağ" - "Sürix" cütünün məğlubunun rəqibi də müəyyənləşib. Bu cütün məğlubu "Linfild" (Şimali İrlandiya) - "Budyo Qlimt" (Norveç) cütünün məğlubu ilə qarşılaşacaq. İlk oyun avqustun 4-də səfərdə, cavab görüşü avqustun 11-də evdə keçiriləcək.



Konfrans Liqasında mübarizə aparan "Neftçi" ikinci mərhələdə "Aris"i (Kipr) keçəcəyi halda növbəti raundda "Rapid" (Vyana, Avstriya) - "Lexiya" (Qdansk, Polşa) cütünün qalibi ilə görüşəcək. "Ağ-qaralar" ilk matçını evdə keçirəcək.

İkinci mərhələdə yarışacaq "Zirə" isə "Makkabi" (Tel-Əviv, İsrail) səddini adlayacağı halda 3-cü təsnifat mərhələsində "Qomel" (Belarus) - "Aris" (Yunanıstan) cütünün qalib ilə qarşılaşacaq. "Zirə" avrokuboklarda yoluna davam edərsə, növbəti raundda ilk görüşünü evdə keçirəcək.

KL-dəki üçüncü təmsilçimiz "Qəbələ" isə Macarıstan "Fehervar"ından üstün olsa, növbəti raundda "Petrokub-Hinçesti" (Moldova) - "Laçi" (Albaniya) cütünün qalibi ilə görüşəcək. "Qəbələ" - "Fehervar" cütünün güclüsü 3-cü mərhələyə evdə başlayacaq. Qeyd edək ki, Konfrans Liqasında 3-cü təsnifat mərhələsinin oyunları avqustun 4-də və 11-də olacaq.

# Bu ədviyyat xərçəngə "qırmızı işıq" yandırır!



Sarıkök ən güclü təbii müalicə vasitələrindən biri hesab olunur. Son araşdırmalar ədviyyatların müntəzəm istifadəsi ilə xərçəng riskinin azaldığını təsdiqləyib. SİA xəbər verir ki, bu barədə "Rossiya 1"in efirində dietoloq, Mixail Ginzburq bildirib. Onun sözlərinə görə, söhbət ədviyyatın tərkibində olan kurkumindən gedir. Antioksidant maddədir və müsbət təsir göstərir.

"Kurkuminin birbaşa təsiri müəyyən edilib, o, şiş hüceyrəsinin apoptoz faktorlarına həssaslığını qaytarır, yeni şiş hüceyrəsi özünü məhv edə bilir" - bunu həkim deyir. Ginzburq qeyd edib ki, sarıkökün müntəzəm istifadəsi ilə kolon və düz bağırsaq, döş və prostat vəzi xərçənginin inkişaf riski əhəmiyyətli dərəcədə azalır.

Spice istisnasız olaraq hər kəsin pəhrizinə daxil edilə bilər. Bundan əlavə onu içkilərə, əsas yeməklərə və ya pastalara da əlavə etmək olar.

***Nazlı Almuradova***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3220**